“Xudafərin harayından qalan mən!..”

# XUDAFƏRİN



Qəzet 1932-ci ildən çıxır № 9-10 (6875-6876) 23 avqust 2023-cü il

# 23 avqust 1993-cü il -

# Cəbrayılın tarixə qovuşan işğal təqvimi



## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev:

“Cəbrayıl şəhərinin baş planı siz cəbrayıllılara təqdim ediləcək. Biz bu plana bərabər baxacağıq. Əgər razılığınız olarsa, bu planı da təsdiq edəcəyik. Bizim planlarımız bundan ibarətdir. Biz müharibəni Zəfərlə başa vurduq. İndi sülh dövrünü də zəfərlə başlamışıq, zəfərlə başa vuracağıq... Bundan sonra cəbrayıllılar Cəbrayılda yaşayacaqlar!”

*(4 oktyabr 2021-ci il. Cəbrayıl şəhərində cəbrayıllı ziyalılarla görüşdəki çıxışından)*

# İşğal faciəmiz qeyd olundu

*(Həmin faciədən 30 il keçir)*





23 avqust 2023-cü il tarixdə Cəbrayıl rayonunun artıq tarixə qovuşmuş işğal gününün 30-cu ildönümü ilə bağlı olaraq 4 saylı qəsəbə ərazisində salınmış “Şəhidlər” Abidə Kompleksində Respublikamızın ərazi bütövlüyü uğunda canlarından keçmiş Şəhidlərimizin xatirəsi yad olunmuş, abidələri önünə gül-çiçək dəstələri qoyulmuşdur.



Tədbirdə Cəbrayıl rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov, rayon İcra Hakimiyyətinin əməkdaşları, YAP Rayon Təşkilatının fəalları, Hüquq-Mühafizə orqanlarının rəhbərləri, rayon ictimaiyyətinin nümayəndələri və qazilər iştirak etmişlər.

**“XUDAFƏRİN”**

# Cəbrayıl şəhərinin Baş planı təsdiqləndi

**44 günlük Vətən müharibəsində qazanılmış Zəfərdən sonra Prezident İlham Əliyevin daimi diqqəti və nəzarəti ilə işğaldan azad edilmiş ərazilərdə müasir şəhərsalma siyasətinə əsaslanan geniş tikinti-quruculuq işləri aparılır. ”Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı” və ”İşğaldan azad edilmiş ərazilərin Ümumi planı”na əsasən Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarında yerləşən yaşayış məntəqələri layihələndirilir, şəhərlərin Baş planları hazırlanır və təsdiq edilir.**

Bu barədə AZƏRTAC-a Dövlət Şəhərsalma və Arxitektura Komitəsindən bildirilib.

Məlumata əsasən, belə ərazi planlaşdırılması sənədlərindən biri - Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sifarişi əsasında Böyük Britaniyanın ”Chapman Taylor” şirkəti ilə Bakı Dövlət Layihə İnstitutu tərəfindən hazırlanmış Cəbrayıl şəhərinin Baş planı 25 iyul 2023-cü il tarixində Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 238 nömrəli Qərarı ilə təsdiq edilib.

Cəbrayıl şəhəri illər ərzində işğalçılar tərəfindən urbisid və ekosidə məruz qalıb, əhali öz doğma yurdlarından didərgin salınıb, əraziyə külli miqdarda maddi ziyan vurulub. Nəticədə mövcud infrastruktur, yaşayış evləri tamamilə məhv edilib və şəhərin yenidən qurulmasına ehtiyac yaranıb. Bunu nəzərə alaraq, dağıdılmış şəhərin yerləşdiyi ərazinin kompleks qiymətləndirilməsi və konseptual layihələndirilməsi işləri aparılıb.

Cəbrayılın yaşayış məntəqəsi kimi tarixi VIII əsrə bağlanır. 1930-cu ildə inzibati mərkəzi olan Cəbrayıl rayonu yaradılıb və şəhər də məhz həmin illərdə formalaşmağa başlayıb. Şəhərin ilk Baş planı 1984-cü ildə işlənilib. O zaman şəhərin ərazisi 258 ha, əhalinin sayı 5200 nəfər idi.

Təsdiq edilmiş yeni Baş plana əsasən, müasir Cəbrayıl şəhəri özü və yaxınlıqdakı 5 kəndi əhatə edəcək və şəhərin ümumi ərazisi 625 ha təşkil edəcək. Layihədə şimaldan cənuba doğru uzanan Çaylaqçay ətrafında şəhərin mərkəz hissəsində təklif olunan ”yaşıl zolaq” şəhərin əsas onurğası kimi verilib. Rayon ərazisində bir çox tarixi-memarlıq abidələrinin, o cümlədən Xudafərin körpüsünün yerləşməsi şəhərin gələcək özünəməxsus memarlıq görünüşünün yaradılmasında xüsusi rol oynayacaq.

İşğaldan azad edilmiş şəhərdə ilkin mərhələdə təhlükəsizlik, infrastruktur məsələlərinin həlli, sosial xidmətlərin fəaliyyəti, iqtisadiyyatın yenidən qurulması və inkişafı məsələləri əsas götürülür. Bu ərazilərdə bərpa və yenidənqurma strategiyalarının əsas məqsədi dayanıqlı iqtisadi inkişafa nail olmaqdır.

Şəhərin bərpası və inkişafı üçün 4 mərhələ nəzərdə tutulur. 2026-cı ilin sonunadək təqribən 3800 nəfərin şəhərdə yerləşəcəyi qeyd olunur, 2040-cı ilin sonuna qədər Cəbrayıl şəhərində 15.000 sakinin yaşayacağı proqnozlaşdırılır. Baş planda yaşayış üçün 143 hektar ərazi ayrılıb və burada az, orta mərtəbəli binaların, həyətyanı sahəyə malik fərdi yaşayış evlərinin inşası nəzərdə tutulub. Əhalinin 82 faizinin orta və azmərtəbəli çoxmənzilli binalarda, 18 faizinin isə fərdi evlərdə yaşayacağı planlaşdırılıb. Yaşayış evlərinin layihələndirilməsi zamanı şəhər ərazisindən səmərəli istifadə və müasir memarlıq həlləri əsas götürülüb.

Baş planların hazırlanması zamanı məskunlaşma sisteminin formalaşdırılmasında əhalinin məşğulluğunun davamlılığı əsas götürülüb. Şəhərin məşğulluq imkanları rayon ərazisindən keçən beynəlxalq əhəmiyyətli magistral yollar və zəngin təbii ehtiyatlar nəzərə alınmaqla proqnozlaşdırılıb. Beləliklə, şəhərin iqtisadi inkişafında xidmət və sənaye sektorlarının böyük rol oynayacağı, kənd təsərrüfatı sahəsinin isə digər yaşayış məntəqələrində daha çox inkişaf edəcəyi göstərilib. Baş planda ictimai-işgüzar zona üçün 22.87 ha ərazi ayrılıb. Burada inzibati və ofis binaları, mərkəzi meydan, mədəniyyət, ictimai-iaşə və turizm obyektləri yerləşdiriləcək.

Şəhərin Baş planı hazırlanarkən nəqliyyatın planlaşdırılması zamanı insanyönümlü şəhər və təhlükəsiz hərəkət prinsipləri əsas götürülüb. Burada yol şəbəkəsi piyada keçidi və velosiped yollarının, ictimai nəqliyyatın üstünlük təşkil etdiyi formada layihələndirilib. Şəhərdaxili yol profillərində təxminən 60 kilometr uzunluğunda piyada və velosiped yollarının salınması planlaşdırılıb. Cəbrayıl şəhərində küçə-yol şəbəkəsinin ümumi uzunluğu 45 kilometrdən çox olacaq.

Sənəddə əhalinin artım tempi nəzərə alınmaqla sosial tələbata uyğun ən müasir təhsil və səhiyyə ocaqları layihələndirilib. Belə ki, şəhər ərazisində öz doğma torpaqlarına qayıdacaq cəbrayıllı 1880 şagirdin təhsil alacağı müasir şəhərsalma standartlarına uyğun 3 tam və orta təhsil müəssisəsi, 960 uşaq üçün nəzərdə tutulan 4 məktəbəqədər təhsil müəssisəsi, mərkəzi rayon xəstəxanası, poliklinika, mədəniyyət mərkəzi, inzibati mərkəz, idman komplekslərinin inşası planlaşdırılıb.

Cəbrayıl şəhərinin coğrafi mövqeyi və relyefi də onun yaşıllıqlara qərq olmuş məkan kimi planlaşdırılmasına imkan verib. Baş plana əsasən, ümumi yaşıllıqların sahəsi 110 ha təşkil edəcək, bununla da şəhər ərazisinin 18 faizi yaşıl zonalardan ibarət olacaq. Əhalinin əsas istirahət zonası olaraq Çaylaqçay ətrafında salınması təklif edilən ”yaşıl zolaq” mərkəzi park olaraq müxtəlif mədəni tədbirlərin keçirilməsi üçün əhalinin açıq məkanlara çıxışını təmin edəcək.

# Zaqatala rayonunda səyyar qəbul-görüş



**Növbəti səyyar qəbul-görüş Zaqatala rayonunda müvəqqəti məskunlaşmış rayon sakinləri ilə keçirilib.**

Əhalinin problemlərinin yerində öyrənilməsi və həll edilməsi məqsədilə Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov növbəti səyyar qəbul-görüşü 18 avqust 2023-cü il tarixdə Zaqatala rayonu, köçkün şəhərciyində keçirib. Qəbulda Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov və həmin ərazidə məskunlaşan keçmiş məcburi köçkünlər iştirak ediblər.

Qəbulda sakinlərin arzu və təklifləri həssaslıqla dinlənilib, qaldırdıqları məsələlər məsul şəxslərin iştirakı ilə yerindəcə araşdırılaraq həlli ilə bağlı tədbirlər müəyyənləşdirilib.

Qəbuldan razı qaldıqlarını bildirən sakinlər həmçinin, məcburi köçkün həyatı yaşadıqları dövrdə problemlərinin həllində köməklik göstərən, onlara yaxından dəstək olan ölkə Prezidentinə və rayon rəhbərinə öz minnətdarlıqlarını bildiriblər.



# Bakı şəhərində növbəti səyyar qəbul

**04 avqust 2023-cü il tarixdə Cəbrayıl Rayon İcra Hakimiyyəti başçısı Kamal Həsənov Bakı şəhəri, Nərimanov rayonu, Seyid Yəhya Bakuvi - 20 ünvanında yerləşən Cəbrayıl Rayon İcra Hakimiyyətinin qərargahında rayon sakinləri ilə növbəti səyyar qəbul-görüş keçirib. Qəbulda Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov, aparatın məsul işçiləri və rayon sakinləri iştirak ediblər.**

Görüşdə Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin məqsədyönlü fəaliyyətinin mühüm məqamlarından, Azərbaycan həqiqətlərini dünyaya bəyan etməsindən, Azərbaycana qərəzli mövqeləri ilə fərqlənən bəzi dövlət başçılarını, beynəlxalq qurumların rəhbərlərini susdurduğundan danışıb. Rayon rəhbəri ölkədə aparılan uğurlu daxili və xarici siyasət nəticəsində işğaldan azad olunmuş rayonlarda yeni infrastruktur layihələrin həyata keçirildiyini, abadlıq-quruculuq işlərinin aparıldığını diqqətə çatdırıb.

Səyyar görüş-qəbulda vətəndaşların səsləndirdikləri ümumi problemlər ayrı-ayrılıqda dinlənilib, problemlərin həlli yollarının araşdırılması üçün görüləcək tədbirlər qeyd olunub və müvafiq qurumlara tapşırıqlar verilib.

Sakinlər qəbuldan razılıqlarını bildirib, onlara göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını ifadə ediblər.

# "İgid ölər, adı qalar"







**Cəbrayıl Tarix-Diyarşünaslıq Muzeyində 1993-cü ildə Cəbrayıl rayonunda şəhid olmuş Fətullayev Nurəddin Məhəmmədəli oğlunun xatirəsinə həsr olunmuş anım tədbiri keçirilmişdir.**

Tədbirdə Cəbrayıl Rayon İcra Hakimiyyətinin şöbə müdiri qazi Abbaslı Abbas, filologiya üzrə fəlsəfə doktoru Taryel Abbaslı, Cəbrayıl rayon KİNİB sədri Fəxrəddin Mürsəlov, Cəbrayıl Qaziləri İctimai Birliyinin sədri, şəhid qardaşı İxtiyar Hüseynov, Səməd Atakişiyev, şəhid ailələri, Qarabağ Qaziləri və rayon ictimaiyyəti iştirak etmişlər.

Tədbirdə şəhidin xatirəsinə həsr olunmuş mahnı müğənni Arif Səlimovun ifasında səslənmiş, Cəbrayıl rayon Mahmudlu Uşaq Musiqi Məktəbinin musiqi kollektivi və Cəbrayıl rayon 23 saylı orta məktəbin şagirdləri mahnı və şeir söyləmişlər.



Allah şəhidlərimizə rəhmət eləsin.

# Rayonda payızlıq taxıl əkinləri üçün şumlama işlərinə başlanılıb

**Taxılçılıqda yüksək məhsuldarlığa nail olmaq üçün həyata keçirilən aqrotexniki tədbirlər arasında şum mühüm əhəmiyyətə malikdir. Vaxtında və keyfiyyətlə aparılmış yay şumu torpağın keyfiyyət göstəricilərini xeyli artırır.**

Belə ki, torpaqda nəmliyin daha çox saxlanılmasına, alaq otlarının toxumlarının, sələf bitkilərinin qalıqlarının daha tez çürüyərək torpağa qarışmasına, toxum yatağının daha keyfiyyətli formalaşmasına şərait yaradır. Bu səbəbdən fermerlərə gələn ilin məhsulu üçün taxıl əkini ilə əlaqədar şumu mümkün qədər tez başa çatdırmaq tövsiyə edilir.

Gələn ilin məhsulu üçün rayonda 14 min hektar sahədə payızlıq taxıl səpini proqnozlaşdırılır. Əkinlərin 1800 hektarının suvarılan ərazilərdə aparılacağı gözlənilir. Fermerlərimiz tərəfindən 4500 hektardan çox sahədə yay şumu aparılmışdır ki, bu da proqnozlaşdırılan əkinlərin 32,1 % -ni təşkil edir. Yay şumunun aparılması davm etdirilir.

Torpaqlardan bol və keyfiyyətli məhsul alınmasında torpağın lazımi qida maddələri ilə zənginləşdirilməsi də vacib şərtlər sırasındadır. Ona görə də səpindən əvvəl əsas şum altına və səpinlə bərabər torpağa veriləcək mineral gübrələrin tədarükünə başlanılmışdır.

Ərazidə əkin aparılacaq bölgə üçün daha uyğun toxumların tədarükü də davam etdirilir. Fermerlərin yüksək məhsuldar və sertifikatlaşdırılmış toxum-



larla təminatını daha da yaxşılaşdırmaq istiqamətində tədbirlər davam etdirilir.

Rayon ərazisində proqnozlaşdırılan taxıl səpininin aqrotexniki müddətdə və keyfiyyətlə başa çatdırılması məqsədi ilə Kənd Təsərrüfatı Nazirliyinin aidiyyatı Rayon qurumlarının mütəxəssisləri tərəfindən fermerlərə lazımi təlimlərin keçirilməsinə başlanılıb.

# *Şahanə Hacıyeva Niderlandda qızıl medal qazanıb*

**Azərbaycan para-cüdoçusu Şahanə Hacıyeva Niderlandın Rotterdam şəhərində keçirilən Avropa paralimpiya çempionatında qızıl medal qazanıb.**

Ş.Hacıyeva 48 kq çəki dərəcəsində birinci yeri tutub. Bu, Azərbaycan yığmasının qitə birinciliyində əldə etdiyi ilk medaldır.

Məlumat üçün bildiririk ki, Şahanə Hacıyeva 24 avqust 2021-ci ildə Yaponiyanın paytaxtı Tokioda "Tokio-2020" XVI Yay Paralimpiya Oyunlarında 48 kq çəki dərəcəsində qızıl medal qazanmışdı və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 6 sentyabr 2021-ci il tarixli Sərəncamına əsasən, XVI Yay Paralimpiya Oyunlarında qazandığı nailiyyətlərə və Azərbaycan idmanında xidmətlərinə görə 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

İdmançımızı təbrik edir və uğurlar arzulayırıq.




# Məktəblimiz Beynəlxalq Riyaziyyat Olimpiadasında qızıl medal qazanıb




**10 avqust 2023-cü ildə İngiltərənin paytaxtı London şəhərində keçirilən və 34 ölkənin iştirak etdiyi Beynəlxalq Riyaziyyat Olimpiadasında Azərbaycanı təmsil edən rayonun K.Məmmədov adına B.Mərcanlı kənd tam orta məktəbinin 9-cu sinif şagirdi Həsənzadə Fərid İsmayıl oğlu qızıl medala layiq görülüb.**

Qeyd edək ki, bu ilin may ayında Fərid Həsənzadə İngiltərədə onlayn təşkil edilən 8-ci sinif şagirdləri arasında 100 ölkənin iştirak etdiyi riyaziyyat və məntiq üzrə Beynəlxalq olimpiadada birinci yer tutaraq qızıl medal qazanmışdı və 2023-cü ilin avqust ayında Londonda keçiriləcək Beynəlxalq olimpiadaya dəvət almışdı.

Məktəblimizi təbrik edir, uğurlar arzulayırıq.

# Fransa Respublikasının Senatına açıq məktub

**1998-ci ilin 29 mayında Fransa Respublikasının Senatında ”1915-ci il erməni soyqırımı” adlı qondarma məsələnin müzakirəsi və bu haqda qanun aktı qəbul edilməsi bir azərbaycanlı məcburi köçkün kimi məni çox hiddətləndirdi. Deyirəm görəsən Fransa boyda böyük bir dövlətin başbilənlərini təmsil edən o məclisin üzvləri belə sərsəm fantaziyanı uydurub - quraşdırmaqla Fransanın qarşısında romantik - xəyali bir aləm açmaq istəyirlər? Əgər ATƏT-in Qarabağ münaqişəsinin həllində də bu günün real həyati gerçəkliklərinə göz yummaqla elə belə cəfəng xülyalara qapılmaqla iş görmək istəyəcəksinizsə, onda kül olsun o Yer planetinin başına ki, onun belə qlobal problemlərini real hadisələr baxımından yox, hansısa mənhus qüvvələrin, eləcə də ermənilərin əhrimən xislətli qara niyyətli planları əsasında həll edirsiniz! Əgər belə olsa, insanların ümumi evi sayılan Dünyamız 2000-ci ilin astanasında bu əsassız çək-çevirin nəticəsi olaraq, yəni sağalmaz xərçəng xəstəliyi olan erməni sindromunun bəşəriyyəti ölümə yuvarlayan bəlası nəticəsində dağıdılıb məhv olacaqdır.**

Axı bu yer kürəsi dünyanın əşrəfi, sahibkarı sayılan şüurlu insanların planetidir. Gəlin insanlığımızın xatirinə həyata real gözlə baxıb düzgün-vicdanlı yola gələk. Elə fransız xalqının böyük oğlu A.de-Sent Ekzüperi ”Adamların planeti” əsərində çox gözəl yazır: ”İnsan həqiqəti - onu insan eləyən şeydir”. Gəlin qayıdaq o insan həqiqətinə!.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə ermənilərin Azərbaycanın Respublika əhəmiyyətli şəhəri olan Xocalıda törətdikləri faciəvi hərəkətləri elə əsil soyqırımı deyilmi?! İnsaniyyətdən on min kilometrlərlə uzaq olan ağlasığmaz vəhşiliklər - ermənilərin azərbaycanlı qız-gəlinləri vertolyotlara doldurub əsir aparmaları və müxtəlif fəndlərlə namuslarına təcavüz eləmələri, körpə və qocalara rəhmsizcəsinə qanlı divanlar tutmaları və bu qansızlıqların videoskassetlərə köçürülüb dünya ölkələrində reklam edilib dolaşması - bugün bu dözülməzliklər niyə dünya ictimaiyyətini,eləcə də siz Fransanı həyəcana gətirmir?! Niyə bunlara ictimai-siyasi məna verilmir?! Dünyanın ürəyi laqeydlik buzu içərisində donubdurmu?!

Ermənilər Kəlbəcəri işğal edəndə adamlar canlarını vəhşi caynaqlardan xilas edib qurtarmaq üçün hərəsi bir tərəfə səpələndi və hələ də Kəlbəcərin buzla-qarla daimi örtülü olan Murovdağ yüksəkliyində neçə illərdir ki, meyidlər don atıb qalıb, sonradan bəziləri öz-özündən qurdlayıblar! Ermənilərin Azərbaycan üzərində etdikləri vəhşiliklər dünya miqyasında ölçülərsə, bu vəhşiliklərin kulminasiya həddi hesab edilə bilər!

Mənim doğma rayonum - Cəbrayıl işğal olunanda isə bir çox ağır faciələrlə yanaşı doğma kəndimə - Dağtumas bölgəsinə də qəmli müsibətlər üz verdi: 36 nəfər mülki vətəndaşın taleyi yoxluğun ağuşuna yuvarlandı, öldü - qaldıları bermud üçbucağında ”həll edildi”.

Cismən salamat qalanlar - qaçqın və köçkünlər bəs necə yaşayırlar? Bunu əyani sübut üçün öz ailəmizin üzləşdiyi və özümün keçirtdiyim ruhi iztirabları misal çəkirəm. 1993-cu ildən qaçqın düşəndən digər didərginlər kimi biz də Qarabağımızın gözəl ab-havasından - səfalı bulaqlar, mənzərəli guşələr qoynundan ayrı düşdük. Muğanın ağır-kəsif hava şəraiti ilə müqayisəyəgəlməz dərəcədə fərqli zonada - füsunkar təbiətli iqlim qurşağında yaşamış dağ adamları çadırlarda, finciklərdə yad mühitə, şəraitə uyğunlaşa bilməyib dünyalarına vida dedilər, ya da ağır xəstəliklərə mübtəla olub hələ də iynə, dava-dərman zoruna ölümlə ”güləşirlər”. Belə ”ölümlə savaşa qalxanlardan” biri də 1941-ci il təvəllüdlü atamdır. Cismani cəhətcə buz baltası kimi sağlam canı olan, heç bir azar-bezar tanımayan, ömründə siqaret çəkməyən və adi bir öskürək belə tanımayan atam qaçqınlıqdan sonra Muğanın ağır havasına tablaşmayıb astma xəstəliyinə tutulub. Artıq beş ildir ki, yollar yorğunuyam, tanımadığım xəstəxana, aptek qalmayıb. Hamısı da adamdan maddi imkanlar tələb edir. Bəli, bu hal təkcə bizim ailədə yox, bütün qaçqın-köçkün ailələrində belədir!

Mən özüm isə M.Ə.Rəsulzadə adına BDU-nun dissertantıyam. Sizə yazdığım bu yazını da elə yerdəcə - torpaq döşəmə üzərində uzanılı vəziyyətdə yazıram. Bir qələm sahibi kimi bu hal mənə ən ağır mənəvi zərbədir, çünki işğal zonasında qoyub gəldiyimiz kəndimizdə subay olsam da özümə məxsus ayrıca evim, həyətyanı sahəm və hətta yaradıcılıq üçün ayrılmış xüsusi yazı otağım vardı, bunların da içərisində təbii ki, yazı masam, kanselyariya ləvazimatım öz qaydasında idi. Bütün bunlar tarmar olunduğu üçün gənc elmi tədqiqatçı və şair kimi mən didərginçilik taleyinin bu ağır məhrumiyyətləri içərisində yaşamağa məcbur olmuşam.

Hörmətli Fransa Senatı! ”Hərbi təyyarəçi” povestində Ekzüperinin bir aforizmi var: ”İnsan bütün xalqlar və irqlər üçün ümumi meyardır”. Burada öz şəxsi və ailəvi qaçqınlıq ağrıacılarından söz salmaqda məqsədim odur ki, bir daha biləsiniz ki, təkcə mən yox, bütün qaçqın-köçkünazərbaycanlı ailələri belə sarsıntılı tale yaşayır. Mənim şəxsi kədərim də bəşəri kədərdir, bütün dünyanı narahat edəsi problemdir.

İnsanların dərdlərini özünün şəxsi sızıltıları kimi dərindən duyan humanist duyğulu prezidentimiz H.Əliyev cənablarının da ən ümdə istəyi odur ki, biz didərginləri öz ulu yurd yerlərimizə qaytarmaqla dərdlərimizə məlhəm bulsun.

İnanıram ki, bu kiçik müraciətimdəki böyük ağrı-acıları və gileyləri səmimi qəbul edəcəksiniz. Hörmətli prezidentimiz Heydər Əliyevin sadiq dəstəkləyicisi və ATƏT-in həmsədri kimi Azərbaycan adlı geniş ürəkli kiçik bir ölkənin tapdanmış haqqını geriyə qaytarmaqda yardımçı olacaq, bu ədalətsiz qərarı rədd edəcəksiniz!

**Sizə böyük ümidlərlə:**
**Şakir Əlif oğlu Albalıyev**
**Cəbrayıl rayonundan olan yurd həsrətlisi**

**P.S.: Fransa Senatına ünvanladığım bu məktubu 1998-ci ildə yazmışdım. Bir surətini Sabirabadda çıxan ”Suqovuşan” qəzetinin redaksiyasına təqdim etmişdim ki, fransızcaya çevirib adıçəkilən ünvana göndərməkdə mənə köməkçi olsunlar. Yəqin ki,elə o vaxt adi bir yazı kimi də hardasa itib-batdı. Arxivimdə qalan bir surətinə təsadüfən rast gəldim. Dövri-qədimdən Fransanın bizə qarşı aqressiv mövqeyinin olduğunu bir daha xatırlatmaq məqsədilə çap eləməyi məsləhət bildim. Axı bu məktubda göstərilənlər həm də bir tarixdir. Hər birimizin taleyindən keçən yaşanmış bir tarix. Tarixi keçmişi isə vaxtaşırı olaraq xatırlamalıyıq. Keçmişdən ibrət götürməyimiz və müəyyən bir nəticə çıxara bilməyimiz üçün...**





# İşğaldan əvvəlki SONUNCU ZƏNG...

**Bu yazını qələmə almaq fikrim yox idi. Məktəbimizin bir neçə məzunu telefonla əlaqə yaradıb nədənsə mütəəssir olduqlarını, qarışıq hisslər keçirdiklərini deyərək, məktəbimizin zəngi barədə yazmağımı istədilər. Razı olmadım. Ancaq şagirdlərimin bu yaxınlarda kəndə gedib, məktəbimizlə bağlı paylaşdıqları videoya baxdıqdan sonra mən də çox təsirləndim, kövrəldim, qəhərdən boğuldum. Onların xahiş və israrlı tələblərini yerinə yetirmək məcburiyyətində qaldım və düşüncələrimi bölüşmək istədim.**

Əvvəlcədən xatırladım ki, zəng həmin tut ağacından 1960-cı ilin əvvəllərində asılıb.

Vaxtilə məktəbimizdə oxuyan elə bir şagird varmı ki, bir dəfə də olsun tut ağacından asılan məktəb zəngini çalmamış olsun?

Elə bir müəllim, məktəb rəhbəri, texniki işçi varmı ki, məktəb zəngini çalmamış olsun?

Bahadur, Fərəc, Sifan, Əsəd müəllim kimi məktəb direktorları dəfələrlə zəngi çalıb-çaldırmayıblarmı?

Hüseynqulu, Gülməmməd, İbrahim, Pəri, Nuridə, Nubar, Asif, Famil və Kamil müəllim kimi dərs hissə müdirləri görəsən neçə dəfə zəngi çalıb-çaldırıblar?

Məktəbdə işləyən elə bir müəllim olubmu ki, zəngi çalmamış olsun?

Üç parakənddə yaşayan elə bir insan tapılmazdı ki, ayağı bu məkana dəyməsin. Bir dəfə də olsun zəngin yanından keçməmiş olsun.

Oruc müəllim - hər bir işə yüksək məsuliyyətlə yanaşan şəhid müəllimimiz - qarlı günlərdə zəngin yanındakı ayaq izlərini gözümün önünə gətirirəm.

**Hikmət Əsəd oğlu**
**Mirələm İslam oğlu**
**Füzuli Qulu oğlu**
**Elsevər Serbiyə oğlu**
**Tural Elşad oğlu**
**Mütəllim Kərim oğlu**
**Pəhləvan Şərfalı oğlu**
**Ədalət Ramazan oğlu**
**Alı İbi oğlu**

kimi şəhidlərimiz neçə dəfə zəngi çalıblar görəsən?

Hələ orta məktəb şagirdi ikən dağlarda doyüşən, ata-ananın tək oğul övladı, heç attestat almağa belə ömrü yetməyən Samir (Tiqana) Qədir oğlu - kim bilir neçə dəfə zəngi çalıb?

Dərsdə olan növbətçi müəllimlərin ”kim gedib zəngi çalar” sualının ardını gözləmədən özünü sinifdən bayıra atan neçə nadinc şagirdlərimiz gözümün önünə gəldi.

İsti aylarda cədvəldə dərsi olmayan müəllimlərin zəngin yanındakı ərik ağacının kölgəsindəki skamyada əyləşmələrini xatırladım.

Bəzi uşaqların orada söhbət edən müəllimləri əsəbiləşdirmək üçün zəngi möhkəm səsləndirmələri gözümün önünə gəldi...

1989-cu ilin may ayının 25-i. Son zəng günü.

Onuncular bir neçə gün idi ki, tədbirə hazırlaşırdılar. Məktəblərdəki tədbirlərdə iştirak etmək üçün rayonun müxtəlif təşkilatlarından nümayəndə ezam olunardı. Həmin il bizim ”Son zəng” tədbirimizə ”Kolxozçu” qəzetinin o vaxtkı redaktoru Hafiz Hüseynov **(Allah rəhmət eləsin-red.)** göndərilmişdi. Zəngin asıldığı yerə yaxın olan siniflərin qarşısındakı dəhlizdə stollar, stullar düzülmüşdü. Demək olar ki, müəllimlərin, texniki işçilərin əksəriyyəti, bəzi valideynlər də tədbirdə iştirak edirdi.

Tədbiri açıq elan etdik. Dərs hissə müdirləri Asif və İbrahim müəllim, sinif rəhbərləri Ləliş, Firdovsi müəllim və



başqaları məzunlara öz arzularını bildirdilər.

Söz şagirdlərə verildi.

Çox kövrək anlar yaşandı.

Aparıcı tədbirin sonunda məzunlardan kiməsə son zəngi çalmaq tapşırığını verdikdə yığıncağın qurtardığını zənn etdik. Hafiz müəllim stuldan qalxmaq istəyəndə məzun Əliyeva Səadət Fevral qızının yüksək, aydın intonasiya və kövrək səslə ”Çalmayın sonuncu zəngi” şeirini söyləməsi onu təkrar yerində əyləşməyə məcbur etdi.

Həmin şeirdən bir neçə misranı paylaşıram:

***Dayanın, çalmayın sonuncu zəngi!***
***Yoxsa ürəyimə toxunacaqdır.***
***Bir zaman “gəl” deyən o doğma səsdə***
***Bir hicran nəğməsi oxunacaqdır.***
***Zəngçalan, nə olar, əlini saxla.***
***Bu şagird ömrünü uzat bir an da.***
***Bu məktəb, bu bina, bax...bu divarlar***
***Mənim olmayacaq zəng vurulanda...***

Bəli, o divarlar yüzlərlə şagirdimizin, hətta 1993-cü ilə qədər təhsil alanların belə olmadı...

Hafiz müəllim bu tədbir haqqında ”Kolxozçu” qəzetində geniş yazı ilə çıxış etdi - ancaq başqa məktəbin adına. Səhəri günü Asif müəllimlə redaksiyaya getdik. And içdi ki, tapşırığı rayon Partiya Komitəsindən alıb. Kimdən aldığını israrla soruşsaq da demədi.

Növbəti nömrədə düzəliş edilməsini tələb etsək də, nəticəsi olmadı.

Həmyerlilərimizin çaldıqları zəng həmin zəngdir. Təəssüf ki, şəhid məktəbimizdə 30 ildən sonra balta ilə çalınan zəng səsini indi heç kim eşitmədi-özlərindən başqa.

Amma buraxılış günü zəngi telefon diräklərinə bağlanan əyri dəmirlə başqa biri döyəcləmişdi.

İndi qoltuqlarında jurnal müəllimlər otağına gələn də yox idi.

Ərik ağacı da, skamya da yox idi.

Videodakı səhnə çox dəhşətli, kədər dolu, hüznlü bir görüntü idi.

Nədənsə sevinə bilmədik, əksinə, çox qəhərləndik. Xoş xatirələri yada salıb ağlayanlar da oldu.

Bəzilərinizin mənimlə danışığınızdakı hıçqırığınıza eyni cür cavab verdim.

Yazışmalarınızı oxuyanda hansı hala düşdüyümü görməyinizi istəməzdim.

Sizlərin də dediyiniz kimi, bu zəng gülmək üçün yox, müəllimlərsiz, şagirdlərsiz şəhid məktəb üçün çalınırdı.

Orada olmayan müəllimləri, şagirdləri xaraba qalmış məktəbə çağırış zəngi idi, ona görə heç kim gəlmədi.

Bu zəng səsində etiraz, giley, kədər, inciklik, küskünlük, inilti olduğunu kim hiss etmədi ki?

Nədənsə yadıma 1993-cü ilin avqustu-işgal günləri düşdü. Yəqin düşmənlərimiz də zəngi dəfələrlə çalıb rişxəndlə bizim uşaqları səsləyiblər.

O zaman biz gücsüz idik.

İndi müzəffər ordumuz şəhidləriylə, qaziləriylə doğma torpaqları ziyarət etməyin yolunu açdı...

Elə idarə, müəssisə var ki, insan həyatı boyu ora ayaq basmır-məktəbdən başqa. Bu səbəbdəndir ki, xalqımız məktəblərə ”Təhsil ocağı” adını veriblər. Ocağın hansı anlamda deyildiyini yaxşı bilirik.

Məktəbin xarabalığı da gözəldir-oraya hopmuş acılı-şirinli xatirələrlə.

O məkan yeganə yerdir ki, insanlarımızın səcdəgahına çevrilməlidir və çevrilir.

Müəllim görəndə özümüzü yığışdırdığımız kimi məktəbi ziyarət edəndə də ona sitayiş etdiyimizi hiss etdirməliyik...

Ümid edirik, inanırıq ki, hər bir kənddə əvvəlkindən də yaxşı, müasir tipli məktəblər tikiləcək.

İlk zəng səsinin balaca fidanlarımızı işıqlı sinif otaqlarına səsləyəcəyi gün uzaqda deyil.

Hamıya həmin günləri görməyi arzulayıram.

**P.S. Qazi Sarvan Hüseynovun ürəyimcə olan bir arzusunu kənddə məskunlaşacaq insanlara çatdırmağı özümə borc bildim: “Həmin zəng gələcəkdə tikiləcək məktəbin muzeyində saxlanılsın”.**



**Rauf Əzizov,**
*Hikmət Allahverdiyev adına Balyand kənd orta məktəbinin direktoru*

# TALEYİ ƏSƏRLƏRİNƏ KÖÇƏN YAZICI

**Hüseyn Əfəndinin (Hüseyn Vəli oğlu Əfəndiyevin) 2004-cü ildə çap olunmuş "Domino" adlı publisistik əsərlərini - hekayələr toplusunu başdan-axıra kimi oxudum. Kitabın sonuna çatandan sonra arxa üz qabığında özü haqdakı təqdimata da göz gəzdirdim: "1955-ci il fevralın 15-də Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndində anadan olmuşam. Bu, pasport yazımdır. Alın yazımda isə belədir: Qazaxıstan Respublikasının Çu rayonunda doğulmuşam. 1956-cı ilin tərəzisiyəm, gün məlum deyil. Bakı Dövlət Universitetinin filologiya fakültəsini qurtarmışam. "Gənclik - Molodost" jurnalının sıravi əməkdaşı və baş redaktoru olmuşam. Latın qrafikalı ilk "Əlifba" kitabının redaktoruyam. "Xalq", "Şans", "Ulus" qəzetlərində işləmişəm. 2002-ci ildən Beynəlxalq Avrasiya və Mətbuat fondunda çalışıram. Bu, mənim ilk kitabımdır".**




Bu kitabı alim həmkarım Şəlalə Ana Hümmətli mənə təqdim etdi, kövrək duyğularla Hüseyn Əfəndinin mənəviyyatca çox zəngin bir insan olmasından, istedadından və s. söhbət salıb, dedi ki, bu kitabı işıq üzü görməsinə az qalmış qəflətən dünyasını dəyişdi. Şəlalə xanım Hüseyn Əfəndinin Çələbilər nəslindən olmasını da bildirdi. Onun bu informasiyası mənə həm də onun tərcümeyi-halında göstərdiyi "müəmmalı" tarixin sirrini başa düşməkdə kömək oldu. Çələbilər tayfasının 1937-ci illər repressiyasına məruz qalması, Sibirə, Qazaxıstana sürgün edilmələri faktı hamıya məlumdur. Demək, Hüseyn Əfəndigilin ailəsi də o vaxt Böyük Mərcanlıdan sürgünə göndərilmiş, o da sürgün vaxtı Qazaxıstanda dünyaya gəlmişdir. Rəsmi sənədində - pasportunda isə 1955-ci il tarixi və Böyük Mərcanlı kəndində doğulduğu göstərilmişdir.

Deyilənə görə, böyük adamların, ələlxüsus da yazıçıların, şairlərin taleyinə əvvəlcədən Ulu Tanrı tərəfindən qeyri-adi, yəni hamıdan fərqlənən bir alın yazısı yazılmış olur. Həmin qeyri-adi, məşəqqətli taleyi yaşayanlardan biri də elə Hüseyn Əfəndi olub: həm doğum tarixindəki ikili tarix, uşaqlığında günahsız yerə çəkdiyi sürgünlük həyatı, 50 ilə yaxın ərzində cismən yaşadığı ömrünün bir hissəsini məcburi köçkünlük-qaçqınlıq ağrı-acısı ilə yaşamaq, həyatının çiçəkləndiyi bir çağda isə ilk kitabı işıq üzü görər-görməz ( deyəsən, kitabın siqnal nüsxəsini görə bilib ancaq) ürək tutmasından qəflətən bu dünya ilə vidalaşması... Bütün bunlar bir qələm adamı kimi Hüseyn Əfəndinin keçmiş olduğu qeyri-adi tale yoludur.

Hüseyn Əfəndi kitabında da, demək olar ki, özünün başına gələnləri - keşməkeşli ömür-gün yolunu qələmə alıb. "Təndir", "Balqabaq tumu" və "Çeçələ barmaq" bölümləri altında təqdim elədiyi hekayələrdən xüsusilə 1-ci bölmədə verilənlər hamısı müharibənin törətdiyi dəhşətləri reallığı ilə əks etdirən nümunələrdir.

Kitabda verilmiş "Tank" başlıqlı ilk hekayısində Hüseyn Əfəndi Qarabağ müharibəsinin acı reallıqlarını təsvir edib. Erməni qaniçənlərin sərhəd kənddə toy mağarının üstünə tank sürməsi, əliyalın əhalini qanına qəltan eləməsi kimi acı müharibə səhnəsini oxuduqca adamın tükləri biz-biz olur, bu vəhşilərin amansız, insanlığa sığmayan hərəkətlərinə qarşı daxilimizdə qəzəb, qisas hissi coşdurur. Buna oxşar cinayətləri ermənilər çox etmişdilər və Hüseyn Əfəndinin qələmində bu qansız hadisə olduqca real və təsirli bir şəkildə əksini tapmışdır.

Bu hekayəni də, digər bu tipli hekayələri də oxuduqca bu ədəbi nümunələrin timsalında Qarabağ müharibəsini reallığı ilə əks etdirən bir yazıçımızı tanıyırıq. Qarabağ müharibəsini əsərlərində reallığı ilə əks etdirən yazarlarımızın sırasında Fazil Güney, Etibar Muradxanlı ilə yanaşı Hüseyn Əfəndinin də adını əlavə edirəm. Çox heyf ki, Hüseyn Əfəndi həyatdan vaxtsız getdi. Yoxsa onun bu mövzuda yəqin ki, silsilə əsərləri işıq üzü görəcəkdi. Ancaq bütün bunlara baxmayaraq, "Domino" kitabındakı hekayələrin əksəriyyəti Qarabağ müharibəsini reallığı ilə canlandıran ədəbi nümunələrdir və deyərdim ki, bu əsərlər əsasında televiziya filmləri də çəkmək olar.

Kitabdakı "Qızıl yarpaq" hekayəsi mənə belə gəlir ki, Hüseyn Əfəndinin doğma kəndi olan Böyük Mərcanlı camaatının yaşamış olduğu Qarabağ müharibəsi məşəqqətlərinin inikasıdır. Çünki burada nəql edilən hadisələr eynilə bir çox kəndlərimiz kimi Böyük Mərcanlı kəndinin də əhalisinin müharibə zamanı üzləşdikləri acı fəlakətlərin inikasıdır.

"Allah mənə ölüm versin, a bala!" Allah ölüm vermirdi arvada, gözü dolusu göz yaşı verirdi, könül dolusu ah verirdi və bir də yaşamağa ömür verirdi. "Get yaşa, gör dünyanın axırı hara gedib dirənəcək?" - deyirdi. Və arvadı aldadırdı gün.

Gün günün dalınca gəlib keçirdi. Buracan da elə fırlanıb gəlmişdi, dünyanın axırı görünmürdü ki, görünmürdü. Yazıq arvad bilmirdi ki, elə durduğu yer, yaşadığı, deyindiyi gün - axırdı. Bundan o yana heç nə yoxdu, bundan o yana kəndlər bərbaddı, çöllər qürbətdi" (s.10-11).

"Qızıl yarpaq" hekayəsindən oxuduğumuz bu cümlələrdə əzizlərini müharibədə itirmiş ixtiyar, yaşlı bir qarının həyatdan üzgün əhval-ruhiyyəsi təqdim olunur. El arasında sabit şəkil almış - folklorlaşmış deyimlə "Allah mənə ölüm versin", - deyə özünə çəkə bilməyəcəyi dərdin - faciənin əlindən ölüm arzulayan bir qadının ruhi iztirabları əks olunur. Lakin bu ağrı-acının nisbətində Allah qarıya ölüm yox, göz yaşı, ah-nalə dolu ömür verirdi, "axırı gözləmək" ümidinə qalan yaşlı qadın üçünsə "əslində hər şey bitmişdi", - deyə müəllif qeyd edir. Bu, nə deməkdir? Əlacı yerdən-göydən üzülən insanın yalançı ümidə bel bağlamaqdan başqa çarəsi qalmır və Hüseyn Əfəndi hekayədə bu incə və acı həyat reallıqlarını təsirli yazıçı dili ilə açıb göstərir. Elə bu acı həyatının təsdiqini bir qədər sonra hekayədə müəllif belə təsvir edir:

"Belə-belə gəlib 2 il tamam oldu...

Günlərin bir günü "Qırmızı xaç"dan aldı qızın sorağını; "Sağdır, əsirlikdədir". Və arvada ürək-dirək verdilər ki, Həqiqəti alıb gətirəcəklər.

Əsirlər azad ediləndə məlum oldu ki, qızın adı siyahıda yoxdur. Əvəzində arvada məktub verdilər. Oxumaq bilmirdi, İslam müəllimi çağırdılar, gəlib oxudu. Kənd camaatının hamısı yığışıb dinləyirdi. Daha doğrusu, dinləmirdilər, ölüb-dirilirdilər və bir də ölürdülər, sonra yenə ölürdülər. Mən bilirdim - adam ki bir dəfə ölüb qurtarmadı, min dəfə də ölüb qurtarmır. Qız yazırdı: "Nənə, səni çox istəyirəm, dünyalarca istəyirəm. həm də istəyirəm, həmişə yanında olum. Amma gücüm çatmır, nənə. Məni apardılar, divan elədilər mənə. Özümü öldürürdüm, qoymadılar. Hamımız zəhər tapmışdıq içməyə, məqam gözləyirdik. Aldılar əlimizdən, dedilər ki, ay türk qancıqları, bizə oğlan doğacaqsız, bir il əmizdirəcəksiz, sonra özünüz bilərsiz, istəsəz, gedərsiz, istəsəz, qalıb işləyərsiz. İşimizin adı yoxdur, nənə, uşağı da ancaq süd verəndən-verənə görürük. O da nəzarət altında... Mən qayıtmıram, nənə, qurbanın olum, qızların heç biri arzulamır geri dönməyi. Nə üzlə qayıdaq?... Keçin günahımızdan..."

Sonuncu söz adamların başına daş kimi düşdü. Özü də daşın hardan düşdüyünü də duydular elə bil, nəzərlərini yuxarı, göylərə çevirdilər. Onda mən Ziyarətdağın ağ saçlarını gördüm və canımdan keçən soyuq iti bıçaq kimi içimi doğradı. Bircə arvadın səsi gəlirdi: "Allah, mənə ölüm ver, hey..." (s.12-13).

Bu hissədə yazıçı həm bu acı həyat hekayətinə aydınlıq gətirir, həm də "dünyanın axırı"nın əslində insan üçün yalançı ümidə təslim olduğu gün çatdığını göstərir.

"İrəvan qatarı" hekayəsinin elə adı bəri başdan hər şeyi deyir adama. Sovet dövründə hamımızın gedib-gəldiyimiz, sərnişini olduğumuz "Bakı-Yerevan qatarı" reysi artıq Qarabağ müharibəsindən sonra "öz reysindən çıxdı" - bağlandı. Artıq bu qatarla gediş-gəliş kəsildi. Demək, Hüseyn Əfəndi belə bir mövzuya müraciət edibsə, şübhəsiz ki, bu hekayədə qaçqınlıq faciəsi əks olunmuşdur. Doğrudan da, hekayəni oxuduqda, intuitiv olaraq düşündüyümüz fikir öz təsdiqini tapır. Bu, həm də o deməkdir ki, müəllif hekayəyə doğru ad (başqa mövzu olsa, "uğurlu ad" deyərdim, amma burada işlədiləcək "uğur" sözü ilə müharibədəki uğursuzluq, ağrı-acılar uyğunsuzluq yaradır) seçmişdir: "Bu qatar İrəvan qatarıdır, amma indi Horadizəcən gedir".

Bu cümlə ilə müəllif faciəni işarələyir və buradaca mükalimə şəkilli bir dialoq qurur: "- Nəyin fikrini eləyirsən, oğul? Yüz fikir bir borcu ödəməz.

- Hə, ödəmir... - dedim.

- Bütün yaxşı günlərin axırı olduğu kimi, pis günün də axırı olur. - Sözü dedi, amma sonra bayaqkı işıqlı gözlərinə elə bil, duman çökdü. Baxışları soyuyub-soyuyub buza döndü. Amma xəyalı dolanırdı, elə dolanırdı ki, məni də alıb aparırdı - Deyəsən, heç pis günün axırı olmur... Olsun ki, bir az ayazıyır, amma əl çəkmir adamın yaxasından" (s.15).

Bu dialoqla Hüseyn Əfəndi müharibələrin, qaçqın-köçkünlük faciəsinin xalqımıza hansı müsibətlər, dəhşətlər yaşatdığına hekayədə zəmin yaradır və bundan sonra hekayədə bir qaçqın qadının dili ilə mənfur, şərəfsiz ermənilərin xalqımızın başına açdığı amansız oyunları nəql edir.

"Külək də adam kimidir. Xaraba yurdun içindən keçəndə boğulur. Özünü divarlara toxumaq istəyir - divar yoxdur; döşəməyə, tavana çırpılmaq keçir könlündən - hamısı bərbad; ağacların boynuna sarılıb yarpaqların şehli dodaqlarını öpməyi arzulayır - ağaclar çoxdan quruyub. Sahibsiz küçüklərin qərib cingiltisindən savayı hənir gəlmir. Daralıb səhəng boğazına dönmüş yollar ayaq dəyməmiş tozlanır. Boğazında torpağın tamını duyursan, içindən qərib qoxusu gəlir.

Başını aşağı salıb o yandan gedəni haylayıram: "Ay adam, hey, bu kəndin adı nədi?". Dönüb üzümə baxır, amma cavab vermir. Dayanıb məni gözləyir. Çatıb əlimi uzadıram. İkiəlli görüşürük. "Bu kəndin adını soruşursan? Bu kəndin adı yoxdur, eloğlu!" "Elə şey olarmı heç, hər kəndin pis-yaxşı bir adı var, deməli..." "Deməlisi-zadı yoxdur, bu kəndin adını aparıblar, yerində qanqal əkiblər...". Kişi açıq-aşkar çığallıq eləyir, danışmaq istəmir, söhbətdən qaçır. Mənsə o boyda yolu basa-basa bura gəlmişdim, polisi, gözətçi postundakıları aldadıb keçmişdim bu tərəfə və gözü-könlü boş qayıtmaq istəmirdim. Doğrusu, heç onda bilmirdim, nə yazacam, nədən söz açacam..." (s.19).

"Təndir" hekayəsini bu cür başlayan Hüseyn Əfəndi burada da erməni qaniçənlərinin bir kəndi xaraba qoyub, əhalisinə olmazın divan tutmasından bəhs açır.

"Yolun ortası" adlı növbəti yazısında isə Hüseyn Əfəndi birbaşa öz ailəsinin timsalında məcburi köçkünlük faciəsinə toxunub: "Segahın yasına getmişdim. Sonra Cümşəddingil məni Arayatılıdan Horadizə apardılar. Dedilər, bir oralara baxarsan. Təzə tikililəri gördüm. Evləri, həyət-bacaları qurub düzəldirlər. Bir az könlüm toxdadı. Cəbrayıla dönən yolda maşını saxlatdım, Böyük Mərcanlıya cəmi on-on beş kilometr qalırdı. Xeyli baxdım o tərəfə, a bala... Amma gözüm almadı, Ziyarətə qar yağıb, yoxsa yox". "Yağıb, a bacı, çoxdan yağıb", - dedim dil açandan bacı dediyim anama. Özü belə istəmişdi. Atasını Sibirə, özünü Qazaxıstana göndərmişdilər... "Sən dünyaya gələndə qapını açıb həyətə çıxa bilmədilər, adam boyu qar yağmışdı Cambula. O gecə atamı görmüşdüm yuxuda, demişdi, qızım, bu da sənin qardaş payın...".

Anamın ikinci sürgün ömrü Biləsuvar yolunun altında, Muğanlıda küləklərlə dilləşirdi.

"Mən küləyə deyirəm, a bacı, əsəndə Ziyarətdağdan əs, Hacıqaramandan gəl!" "Gəlmir, a bala, fırlanıb Arazdan gəlir, gedir bir azdan gəlir, zalım külək yayın ortasında da payızdan gəlir..." (s.22-23).

Burada obrazlı, metaforik tərzdə anası ilə danışığını təqdim edən yazıçı Sibir, Qazaxıstan sürgününü xatırladıb, məcburi köçkünlüyü "anamın ikinci sürgün ömrü" şəklində ifadə edir. Hətta hekayənin bir yerində müəllif kəndlərinə gedən yolu, evlərini də təsvirə gətirib, sonra məcburi köçkünlüyü, çadır həyatını təqdim edir:

"Gedirsən, gedirsən. Lələ təpəsinin yanından yol düşür aşağa - Araza tərəf. Ordan o yana çöl yoluyla Mehdiliyə, Çaxırlıya çatmaq olur. Körpünü keçəndən sonra Kor Əhmədli başlanır... Bu da Böyük Mərcanlı. "Bakı-İrəvan" dəmir yolu kəndi iki yerə bölür. Biz stansiyanın üstündə olurduq. Əvvəllər qatardan aynabəndimiz görünərdi. Sonra arada çoxlu evlər tikildi.

Hərdən gedib çadırlarda, anamgilin yanında gecələyəndə yuxum ərşə çəkilir. Gözlərimi yumuram, görürəm qatardayam. Təkərlərin səsi başıma düşür. Yatmağa qorxuram. Gecə saat 2-də stansiyaya çatası qatarda bələdçi gözə dəymir. Allah bilir, nə qədər içib, haçan özünə gələcək. Akarada yetirib ki, bəs sən düşməliydin, niyə düşməmisən. Deyirəm, qağa, axı, sən sərnişinlərə qulluq eləməlisən, deyir eləyirəm da...

Yatmaq olmaz! Tak, tak, tak... Yatmaq olmaz!

...Kəndin işıqları yanmır, zil qaranlıqdır. Amma düşməliyəm və Mərcanlı itləriylə döyüşə-döyüşə gedib çatmalıyam evə. Düşürəm və vahimələnirəm... "Ay bacı, heç olmasa, bu çadırın pəncərəsini açıq qoyun", "Soyuq olur, a bala". Bir müddət heç birimiz danışmırıq. Sonra anam dillənir: "Qazaxıstandan qayıtdığımız yadına düşürmü?" Cavab vermirəm, çünki bu sual mənə dəfələrlə verilib, hər dəfə də "yox", - demişəm. Doğrudan, həmişə elə bilmişəm ki, gözümü açıb başı qarlı Ziyarətdağı görmüşəm. "Sən doğulanda pəncərəmizin başınacan qar yağmışdı..." (s.24)

Hekayənin sonluğuna yaxın bir yerdə Hüseyn Əfəndi yenə anasının ona sürgün həyatı ilə bağlı verdiyi sualı təqdim edir: "Sonra anam dillənir: "Qazaxıstandan qayıtdığımız yadına düşürmü?". Cavab vermirəm, çünki bu sual mənə dəfələrlə verilib, hər dəfə də "yox", - demişəm. Doğrudan, həmişə elə bilmişəm ki, gözümü açıb başı qarlı Ziyarətdağı görmüşəm. "Sən doğulanda pəncərəmizin başınacan qar yağmışdı..." (s.25).

Mənə elə gəlir ki, bu sual yazıçının ailəsi üçün, həyatı üçün ürəyini sızıldadan bir sarı sim olub. Çünki bu sualı verməyə özündən ixtiyarsız adətgərdə olan ana sürgün dövrünün ailəyə dözülməz dağ çəkdirdiyinin faciəsini yaşayıb. Bu, elə bir çalın-çarpaz dağdır ki, onu istəsə də, unuda bilməz ana. Anasının qəlbini dağlayan bu sürgünlük həyatı isə o vaxt körpə olan Hüseyn Əfəndinin yazıçı kimi yetişməsində bir alın yazısı olub. Bu qeyri-adi tale yolu körpəlikdən onu qarabaqara izlədiyindən, "sən doğulanda pəncərəmizin başınacan qar yağmışdı", - deyərək dəfələrlə xatırladan anası bəlkə də, heç fərqinə varmayıbmış ki, bu, elə taleyin Hüseyn Əfəndi ilə oynadığı amansız oyunu imiş. Metaforaların dili ilə həyatı anlayıb danışan yazıçının taleyinə elə doğulandan qar yağıbmış. O qar vaxtından tez - Hüseyn Əfəndinin şəklindən gördüyümüz kimi - onun saçlarına "yağdı", saçlarını vaxtından əvvəl qar rənginə boyayıb ağartdı, o qar onun gəncliyinə yağıb, ömrünün yaz-yay vədəsində qışını gətirdi, onu həyatdan vaxtsız-vədəsiz apardı. Bu gün xatirələrdə və kitablarında yaşayır. Hüseyn Əfəndi "Murovun ağ çiçəkləri" yazısında da sanki özü bu "ağ çiçəklər"in sehrini-hikmətini həm də ki, öz taleyinə müvafiq şəkildə ərz eləmişdi. Çünki o özü də solmayan ağ çiçək timsalında xatirələrdə və bir də bizlərə əbədi miras qoyduğu əsərlərində yaşayır...

**Şakir Albalıyev,**



# Ömrü qəriblikdə keçən mənim ipəyi anam

**"Allah, anama şəfa ver. Anamın sağlığıyla gedək Cəbrayılımızda, Dağtumasımızda yaşayaq, ay Allah!" - deyib neçə illər idi ki, gündə yüz dəfə üzümü göyə tutub Allaha yalvarırdım. Neçə illər idi ki, hər gün belə dualar edirdim... 2017-ci ilin noyabrında bərk xəstələnmişdin, ay ana. Onda da sidq-ürəklə üzümü Allaha tutub ürəyimdə mənim ömrümdən on il kəsib sənə verməyini istəmişdim. Allah eşitmişdi elə bil məni...**

Ürəyimdə sevinmişdim. Amma bu sirrimi heç kimə bənsidibağartmamışdım. Anam özü bilsəydi, dad-fəryad edərdi, qıymazdı belə dua edəm. Çünki o həmişə "Allah məni əlli-gözlü gor qapısına aparsın", "Allah mənə bala dağı göstərməsin", "Övladlarımın çiynində gor evinə gedim", "Allah məni əldən ağıza qoymasın", "Allah mənə azarı-hasand ölüm versin, yer yatağı eləməsin. Gələnin əlinə, gedənin üzünə baxmayım", "heç kəsə möhtac eləməsin", "əlim-ayağım, gözüm sağ ikən məni Allah əlli-ayaqlı gor evinə aparsın" və s. bu tipli dualar edərdi. Allah da özünün bu günahsız - nurüzlü bəndəsi olan anamın duasını eşitdi elə bil. Yer-yataq xəstəsi olmadan bircə saatın içində qəflətən bir quş kimi pırıldayıb getdi əlimizdən anam. Anamın gedəcəyi 3-4 gün öncədən ürəyimə dammışdı. Amma dilimə gətirə bilmirdim, ağzım açılmırdı bir kimsəyə bu intuitiv duyğumu deyəm. Atam da 2-3 gün əvvəl yuxuma girmişdi. Yuxumda atamla Saray qəbiristanlığı istiqamətinə "getdik" maşınla. Orda bir qəfil "maşını saxlatdırdı", yerə düşdük. Qəbiristanlığın altında zirzəmi formasında geniş bir otağa daxil olduq. Mən burda dayanmaq istəmədim, qaça-qaça ordan yola çıxdım ki, gəlin gedək. Oradan Əvəz adlı bir nəfər ardımca qaçaraq mənə nəsə verməyə gəldi. Mənə çatanda yuxum çəkildi. İndi o yuxumu yozmağa çalışıram. Bacım Ramilə 40 gün əvvəl ürək tutmasından ağır xəstələnmişdi, ölümdən qayıtdı. Fikirləşirəm ki, Əvəz adlı şəxsin yuxumda mənə tərəf qaçıb gəlməsi və nəsə vermək istəməsi simvoldur. Atam bacımın əvəzinə anamı apardı yanına. Əgər 28 iyunda bacım xəstələnəndə dünyasını dəyişsəydi, anam dünyasını dəyişən günü bacımın 40 mərasiminə təsadüf edəcəkdi. "Dədə Qorqud"dakı kimi, can əvəzinə can alıb apardı atam - bacımın əvəzinə anamı gəlib apardı. Bacım Ramilə də ağır yuxu görübmüş. Görübmüş ki, bir təmtəraqlı məclis var. Gözləyib ki, atam burda ona yaxınlaşa, onu apara, amma anamı aparıb. Həmişə "Ceyran" deyib əzizlədiyi - çağırdığı anamı aparıb bacımın yuxusunda. "Allah mənə övlad dağı göstərməsin" deyən anamın duasını da eşidibmiş Allah-təala. Anam dözə bilməzdi övlad dağına. Allah bu sarıdan anama övlad dağı çəkdirmədi. Anam nur üzlü, ağzı dualı xanım-xatın qadın idi və Allah-təala duasını həmişə eşidərdi. Beləcə, anam öz balasının - bacım Ramilənin ölümünü qeyb dünyasının əsrarəngiz möcüzəsi ilə - özünün ölümü ilə özünə "satın aldı". Can əvəzinə can borcu verdi anam.

2004-cü ilin 6 martında Saatlıda dünyasını dəyişən atam Beyləqanın Örənqala kəndində,



Günəşli kənd qəbiristanlığında torpağa tapşırılandan 19 il 5 ay sonra - 2023-cü ilin 6 avqustunda anam Abşeron rayonunun Saray qəsəbəsində dünyasını dəyişdi. Hər ikisinin ölümü İslam aləmindəki məhərrəmlik günlərinə təsadüf elədi. Atamız 63 yaşında dünyasını dəyişəndən sonra elə bil anamın yarısı getdi. Atamın xiffətini çəkib yumağa dönən anam övladlarına pasiban durmaqla atamızın da yarımçıq qalmış ömrünü yaşayırdı. Bu 19 il 5 ayda həm ata əvəzi, həm də ana oldu bizə.

Hamı üçün öz anası şirin, əziz olduğu üçün hər kəsə də öz anası mələk donunda gözəl görünür. Mənim nəzərimdə də anam nurani simalı, mələk kimi saf bir qadın idi. Bunu bir övlad kimi mənim deməyim adi görünür. Ancaq qohum da, yad da, təsadüfən bizim evimizə gələn hər hansı qonaq da anamın necə üzü nurlu bir qadın, üzündən-gözündən nur ələnən bir ipəyi qadın, nurani ağbirçək olduğunu deyirdi. Qonşularımız da anamın sözdən, qaldan-qiybətdən uzaq bir qadın olduğunu yaxşı bilirdilər. Dünya malında gözü olmayan, gözü-könlü tox bir xanım-xatın ana idi mənim anam. Evimizə gələn qonaqlardan əliboş gələn olanda, üzrxahlıq eləyənə "özünüzün gəlişinizlə mənə elə paysınız" deyərdi. "Nəyimiz kəmdi ki? Allaha şükür, hər şeyimiz var, heç nyə ehtiyacımız yoxdu" deyərdi. Anamı görənlər - tanıyanlar hamısı onun gözü-könlü tox olduğunu görürdü. Bir də kimsə bizə bir pay-sovqat gətirəndə deyərdi ki, "elə bilirsiniz artırıb gətiribdi? Evindən-ailəsindən kəsib gətiribdi. Siz də onun payının müqabilində artıqlamasilə nəsə verin, borclu qoymayın özünüzü"...

Anamın qəriblikdə, vətənsiz dünyasını dəyişməsi də bir yandan içimi yandırıb-göynədir. Anam bir belə qohumun-doğmaların arasında qəriblik çəkdi, qərib ömürü yaşadı. Dəfn olunduğu Saray qəbiristanlığındakı gorgah yeri də evimizdən çox aralı düşdüyündən qəbiristanlığın qərib bir guşəsi kimi göründü gözlərimə. Anamın ömür yolunu, keçdiyi həyatı dərindən düşünəndə, yaşadıqlarının bir neçə mərhələyə bölündüyünü və hamısının da qəribliklər içində keçdiyini görürsən.

1942-ci ildə Zəngəzur mahalının Qarakilsə rayonunun Sofulu kəndində Qubuş babamla Aniyət nənəmin övladı kimi dünyaya gələn anam təxminən 25 iləcən doğulduğu kənddə yaşadı. Gəlin köçdüyü Cəbrayılın Sofulu kəndində, yaşadığı Dağtumas kəndində isə anamın həyatının ikinci mərhələsi, həm də qəriblik mərhələsi başlandı. O vaxt atamla nikaha düşmək üçün pasport götürmək zərurəti yaranıb. Ermənistan Respublikası ərazisinə 1920-ci illərdə qatılmış olan Zəngəzur qəzasının Sisyan (Qarakilsə) rayonunun Sofulu kəndində doğulan anamın sənədlərini gedib oradan götürməyiblər. O vaxtlar "əliuzun" olan bir yaxın adamımız anamın adına Cəbrayılda pasport "düzəltdirib", yəni doğulduğu yeri Sisyan (Qarakilsə) rayonunun yox, Cəbrayıl rayonunun Sofulu kəndi kimi sənədləşdiriblər. Beləcə, anam cismən ayrıldığı Sofulu kəndindən rəsmən də doğum sənədində-pasportunda "ayrıldı". 25 ildən bir az çox da Cəbrayılda - Dağtumas kəndində ömür-gün keçirən anam özü boyda xətir-hörmət qazandı burada. Qonum-qonşular, kənd adamları hamısı anamın mələk kimi saflığından danışardılar, bir kəslə sözü-söhbəti, davası-danışığı, qeylü-qalı olmadığının şahidiydilər. Qan yatızdıran sülh adamı olduğunu görürdülər. Anam Dağtumasda qərib eldən gəlin gəlmiş namuslu-iffətli xanım kimi hamının hörmətini, etibarını qazanmışdı. Amma bu qəriblik heç demə onu qarabaqara hələ çox qovacaqmış. Anasından-atasından, qardaş- bacılarından kənar düşmüşdüsə də, anamın özünə qazandırdığı xətri-hörməti onu Dağtumasda qərib kimi yaşamağa qoymamışdı. Elə sağ olsunlar Tumas camaatı da. Qoymamışdılar onu qərib kimi nisgilli olmağa, xiffət çəkməyə. Anam da ölənəcən dağtumaslıları özünə doğmaları bildi. Həmişə Tumas camaatından ürəkdolusu danışardı, onları özünə heç vaxt yad saymazdı, hətta deyərdim ki, doğmalarından da artıq istəyərdi onları.

1993-cü ilin may-iyununda atam Əlif Aydınoğlu repressiyaya uğrayıb xarabalığa çevrilmiş dədə-baba yurdu Pirəsəd kəndinə köçəndə, mən milli orduda idim. Eşitdiyimə görə, onda da qonşular yığışıb anamı, ailə üzvlərimizi Pirəsədə kövrələ-kövrələ, həzin duyğularla yola salmışdılar. 2-3 ay da beləcə Cəbrayılda - illərcə üzü-gözü öyrəşdiyi Dağtumas camaatından ayrı düşüb, həsrət dolu qəriblik yaşadı anam. Yenə də hərdən ordan Dağtumasdakı evimizə gəlib qonum-qonşularla, kənd adamları ilə görüşə bilirdi. Hələ bunlar şükürlü imiş heç demə. Fələyin ən amansız ayrılıq oyunları - qəriblik köçü (və köçləri) hələ qabaqdaymış.

1993-cü ilin avqustunda namərd qonşularımız olan ermənilər Cəbrayılımızı işğal elədilər. Hamı kimi bizim də, anamın da məcburi köçkünlük deyilən qəriblik həyatı, çoxlarının isə əbədi həsrət, qiyamətəcən davam edən ayrılıq köçü başladı. Qiyamət onda qopdu bizlər üçün. Topun ağzına qoyulmuş giliz - mərmi qəlpələri kimi hərə bir diyara dağıldı, finayrı düşdü əllərimiz. Qonşu qonşuya, qardaş qardaşa həsrət qaldı, qərib yaşamağa başladıq. Qəriblik köçümüz başlandı. Biz də ailəlikcə gəlib xalamqızı Narıngülün bir vaxtlar gəlin köçüb yaşadığı Saatlı rayonunun Azadkənd kəndində məskunlaşdıq. Bu da anamın həyatında növbəti bir qəriblik dövrü oldu. Əyin paltarımızla əsir-yesir günündə güc-bəla ilə qaçıb erməni əlindən canımızı qurtarmışdıq. Buna baxmayaraq əlimizin zəhməti, alnımızın təri ilə yenə halal ruzi qazanıb özümüzü düzəltdik. Elə güzəranımız yaxşılaşmışdı ki, atam qəflətən dünyasını dəyişdi. Vətənin bir adı da hər kəsin həyat yoldaşıdır. Hamımıza bir cür pis təsir edən bu itki anamızı başqa cür yandırıb-yaxdı. İnfarkt keçirtdi, göydə Allahın mərhəməti sayəsində, yerdə həkimlərin səyi ilə anamızı həyata qaytardıq. Amma "anamın yarı canı orda getdi". Atamın - yəni həyat yoldaşının timsalında bir "vətənini" də onda itirib qəribləşdi anam. Qərib eldə bir qəriblik də burdan gəldi anama. Çox sarsıldı, çox sındı anam, ömrünə bir balta da onda çalındı anamın. Atamın qəfil gedişi olmasaydı, anam indikindən çox yaşayacaqdı...

Beləcə, 15 ildən bir az çox Saatlı rayonunun Azadkənd kəndində məcburi köçkünlük həyatı - qəriblik həyatı yaşayan anam burada da yerli camaat arasında nurani bir xanım kimi bolluca xətir-izzət qazandı. Qardaşım Nağının 2002-ci ilin avqustunda elə həmin kənddən qonşuluğumuzda olan Hacıyev Ataman kişinin qızı Aləmzərlə ailə qurması bizi bir az da o kəndə doğmalaşdırmışdı. Demək olar ki, Dağtumasdakı kimi el-oba içində xətir-hörmət sahibi idik. Ancaq bunu da elə bil fələk çox gördü bizə...

"Şəhər havasına uçmaq" xəstəliyi hamı kimi qardaşlarımı da "havalandırdı" bu kənddən. Mən dissertasiya müdafiə edib Akademiyada işləyirdim. Qardaşlarım da




mənim qaraltıma, qohum-əqrəbanın əksəriyyətinin şəhərdə yaşamasının, məskunlaşmasının səbəbinə 2008-ci ilin 15 oktyabrında Abşeron rayonunun Saray qəsəbəsində ev alıb ora köçdülər. Bu da bizim ailəmizin və anamın həyatının sonuncu qəriblik köçü oldu. Saray qəsəbəsində də anama 15 il məcburi köçkün ömrü yaşamaq nəsib oldu. Bununla da növbəti və sonuncu qəriblik ömrü başladı anamın...

İndi bütün bunları düşündükcə, ötüb-keçmişləri yada salıb hövllənirəm. Anasızlıqdan kürəyimin ortası qovuşub-yanır. Ürəyimdəki sızıltılar, ağrı-acılar kürəyimin arasını odlayıb-yandırır. Anamdan hərdən eşidərdim ki, filankəs ağrı-acı çəkməkdən kürəyinin ortası alışıbyanır. İndi mən o gündəyəm.

*(Ardı səhifə 6-da)*



*Nəvəsi Əlif və gəlini Gülyazla*

# Ömrü qəriblikdə keçən mənim ipəyi anam

(Əvvəli səhifə 5-də)

Başsağlığına gələnləri qarşılayanda üzdən sakit görsənməyə çalışsam da, ürəyimdəki ağrılar qıvrılıb ilan kimi kürəklərimin ortasını sancır-yandırır; kürəklərimin arası qovuşub-yanır ağrıdan. Uşaq kimi ağladım, hönkürtü çaldım, hay-həşir qopartdım, ha elədim anamın köç karvanını saxlaya bilmədim. Atamın bizə əmanət qoyduğu nişanəni-yadigarı, əziz anamı saxlaya bilmədim.

Yaxından - kənardan hamı mənə təskinlik verib, sən alim adamsan, həyatı başa düşürsən, özünü təmkinli apar deyirlər. Axı necə aparım? Nə deyim bilmirəm. bir el deyimi ilə deyimmi: ”Mənim yaram ağrıyır, sənin haran ağrıyır”. Mən anam boyda mələk kimi anamı itirmişəm, yanmayımmı? Deyirsiniz aliməm, özümü təmkinli aparım.



Düzdü, elə aliməm ki, ana itkisinin böyüklüyünü dərinliyi ilə dərk etdiyimdən, beynimdə - ürəyimdə ana itkisi adlı dərin qanlı şırım açılıb. Beynimin-ürəyimin dərinliyində qara qanlar şoralanıb axır, ürəyimdən dolanıb kürəyimin ortasından gəlib keçir. Necə dözüm içimdən qıjıltıyla - şırıltıyla axıb keçən bu qaynar, isti qanlı şırımın ağrısına? Necə sakit dayanım - baxım bu amansız ağrı-acıya? Axı qanmaz uşaq deyiləm ki, qanmayım-anlamayım anamdan əbədi ayrılmağımın sonsuz müsibətini. Ağlıkəsməz uşaqlar anlamazlar axı ana ayrılığının - ana ölümünün məşum kədərini. Ona görə də sakitcə, ”səbrlə” dayanıb maddım-maddım baxarlar - ”dözərlər”. ”Qəmli ikən yalan yerə gülmərəm” deyən rəhmətlik M.Ə.Sabirin sözləri düşdü indi yadıma. Amma yenə ürəyimi çıxarıb yerində daş asdım anamın ”3” - ”7” mərasimlərində. Rəhmətlik yazıçımız Gülhüseyn Hüseynoğlunun “Növbətçi təbəssüm”ünü maska edib üzümə taxdım. Anamın da əvvəlcədən söylədiyi vəsiyyətinə əməl etməyə çalışdım: “Bala, əyninizi-qarnınızı bərkidin, geyinib qıfıllanın, toqqanızın altın bərkidin. Məclisimə gəlib gedənlərin qabağında möhkəm durun, şax dayanın. Qonaqları yaxşı yola salın, mənim ehsanımı yaxşı verin, qoyun camaat razı getsin deyirdi anam bizə eygülü vaxtlarda həmişə. Anamın bu kimi sözlərinə xatir ”qəmli ikən yalan yerə güldüm də” - özümü təmkinli, sakit, ”dərdsiz” aparmağa çalışdım. Çox güman ki, içi ilə çölü bir olan adam kimi bu halım məndə tam alınmadı. Amma hər halda özümü təmkinli tutmağa (əslində göstərməyə) özümü zorladım...

Mənə qaibdən, hatifdən də, yuxularımda da əvvəlcədən bəzi şeylərin xəbərdarlığını edirlər. Bir ilə yaxın, bəlkə də çox olardı ki,yuxumda mənə uzaq yerlərə səfərə çıxmamağı tapşırmışdılar anamı tək-sahibsiz qoymamağıma görə. Bu xəbərdarlığı evdə də heç kimə dilim açılmadı, ürək eləmədim deyim. Öz daxili dünyamda gizlin saxladım. Buna görə də hara gedirdimsə, ürəyimdə anamdan sarı nigaran olurdum. Evə zəng edib anamın vəziyyətini xəbər alırdım. Yaxşı olduğunu eşidib aram olurdum. Anam da mənə həmişə deyirdi ki, sən evdə olmayanda rahatlıq tapa bilmirəm, sən ürəyimdə bir qutsan elə bil, mən səndən nəfəs alıram.

Məni nə qədər özünə dayaq yeri bilirdinsə də, məndən yana da o qədər nigarançılığın vardı, can, ay ana. Yaralı yerin oldum, ana can. Evlənməyimi çox arzulayardın: “Hamısını pis-yaxşı gördüm, bircə səndən nəyranam (nigaranam), səninkini də (yəni həyat yoldaşını da) görsəydim, sənin evlənməyini görsəydim, ta nigarançılığım qalmazdı” deyərdin, can ay nənə (ana). Mən də qayıdıb sənə deyərdim ki, ”mən bütün ölkənin yiyəsiyəm, mənim fikrimi niyə eləyirsən ki? Azərbaycanın hamısı mənimdi daa”. Sonra da ”mən əjdahayam, divəm”, yəni nəhəng adamam, məndən yana narahat olub fikir çəkmə, - deyərdim, ay ana. Bununla ona evlənmək məsələsi xırda şeydi, onu özünə dərd eləmə demək istəyərdim bununla. Bunu deməklə anamı ovundurmaq, könlünü almaq, sakitləşdirmək istəyirdim.

Son saatlarında bacım Ramilə də gəldi yanına, can ana. ”Qonaq gəlmişdim mən sənə, ay ana. Sən mənim qonağım oldun” deyib vayşivən qopartdı. Ramilə gəlmişdi yanına, qonaq qalıb səninlə danışıb-dilləşməyə, dərdləşməyə, ay ana. Amma sən gözlənilmədən dünyanı dəyişməyinlə o gecə bacımın (əslində hamımızın) yanında bir gecəlik ”qonaq qaldın”, ay ana.

Həmişə özünə azarrı - hasand ölüm arzulayardın, can nənə. Bir saatın içində gözlənilmədən qəflətən dünyanı dəyişdin. Təmiz, saf bal adı ilə aldığım baldan şərbət elətdirib sənə içirtdim, can ana. İçməyə halın olmasa da, sözümdən çıxmayıb, canını dişinə tutub içdin, can anam. Son məqamda əllərinlə biləklərimdən tutdun, caan. Səni əcəlin əlindən qurtara bilmədim, bağışla məni. Son anında istəkli gəlinin - həmişə yanında olub zəhmətini çəkmiş gəlinin Aləmzəri səsləyib, iki dəfə “Aləm” çağırdın. Sözünün gerisini gətirə bilmədin. Yəqin ki, halallıq istəyirdin. Bir də kiçik bacım Rənanı və bir də övladlarının hamısından yaşca böyük olsam da, ailə qurmadığıma görə sənin gözündə hamıdan “kiçik” olan məni tapşıracaqdın ki, muğayat olsun bizlərdən. Caan, son məqamında da bizləri düşündün, dilinə gətirə bilmədinsə də, əhvalından - ipək kimi mehriban, qayğıkeş xasiyyətindən “oxuduq” deyə bilmədiklərini...

Qardaşım Nağının, Aləmzərin sonbeşik qızlarına sənin adını qoymuşdum, ana. ”Anaş” dediyimiz adaşın-nəvən Qərənfil orta məktəbi bitirdi, ali məktəbə qəbul imtahanlarından yüksək bal topladı. Bu yüksək nəticə nəvənin sənə ”hədiyyəsi” idi. Sevindin, qurban dedin, dedin ki, ali məktəbə qəbul olması şərəfinə qurban kəsərsən. Tapşırıb getdin, ay ana...

Atam martın 6-da, sən isə avqustun 6-da dünyadan köçdünüz. Əmim Gülhüseyn 2004-cü il dekabrın 21-də, arvadı - bibim Gülzar 2011-ci ilin noyabrın 21-də dünyalarını dəyişdilər. İndi fikirləşirəm ki, bunlar təsadüflərdirmi? Atam sonbeşik qardaşım Fazilin ad günündə dünyasını dəyişdi, səninləsə qardaşım Nağının avqustun 3-də ad gününü bir yerdə deyə-gülə qeyd elədik. Onda işıq saçırdın elə bil. Nağının ad günün təbrik eləyib dedin ki, gələn il bu vədə qızın Zərrintacın övladı ilə keçirdəsən ad gününü. Nağının qudası Elşənə, Nəzakətə də tezliklə nəvə görmələrini arzuladın. Mən də söz atıb dedim ki, hələ sabah avqustun 4-də Nağı ilə Aləmzərin toylarının 21-ci ildönümüdür. Sən də qayıdıb mənə də tezliklə toy qismət olmasını arzuladın. Heç demə 2-3 günlük ömrün qalmış imiş bundan sonra, ay ana...

Dünyanı dəyişəndən sonra övladlarının, nəvələrinin, gəlinlərinin, əmimqızlarının telefonlarının statuslarını ”bəzədin”, can ana. Əmimqızı - Zərrintacın qaynanası Nəzakət: ”Mənim ana əvəzimiydin, ay bibi. Cənnətdə yerin olsun”. ”Məkanın cənnət olsun, cənnət mələyi bibim!”.




Əmimqızı Nərgiz: ”Can, ay bibi, məkanın cənnət olsun. Sən bizə əmi arvadı yox, ana olmusan”.

Bacım Ramilə: ”Qollarında böyüdük, çiyinlərimizdə getdin. Allah sənə rəhmət eləsin, anam. Məkanın cənnət olsun!”.

Bacım Rəna və qızı Yeganə: ”Nur üzlü mələk nənəmiz. Cənnət analarından olan əziz Anamız, nənəmiz”... Allah sənə rəhmət eləsin, məkanın cənnət olsun. İnanırıq ki, cənnətdir. İnşallah.

Bir insanı cənnətə aparacaq bütün xoş əməllərin hamısı səndə varıydı. Sən bizim bu yaşadığımız hər cürlü kirlərlə kirlənmiş dünyada gördüyümüz ən təmiz, ən saf şəkildə qalmağı bacaran yeganə insanlardan idin. Allah bizlərə də bu dünyada sənin kimi təmiz, saf qalmağı nəsib eləsin!”.

Qardaşım Nağının qızı Nuray: ”Nənəm öldü” - yazılışı doqquz hərflik, deyilişi iki sözlük, üzüntüsü bir ömürlük cümlədir. Hər insanın babası, nənəsi onun körpəliyi, uşaqlığı, yeniyetməliyidir. Bunu heç vaxt indiki qədər anlamamışdım. Həmişə səni bir əlində meyvə, bir əlində geyinməyə jaket, dilində xoş sözlər, ürəyində dualar olan nənəm kimi xatırlayacağam”.

Adaşın-adını daşıyan nəvən Anaş (Qərənfil) ”Bir gün yanımızda olmayacağını düşünəndə məni qəhər boğurdu. Elə bir şey olacağına inanmırdım. Elə bilirdim həmişə bizimlə yanımızda olacaqsan. Yoxluğuna inana bilmirik, nənə!”, ”Sən bizim təkcə nənəmiz olmadın, həm də anamız oldun. Bizi ən gözəl sən sevdin, nənə. Yanımızda olmasan da, hər zaman qəlbimizdəsən. Allah sənə rəhmət eləsin!” və s.

İpəyi nənələrin canlı mücəssəməsiydin, ana. Rəhmətlik gəlinin Səmayə sənə deyərdi ki, heç mənim anam da gəlinlərini sənin qədər çox istəyə bilməz. Sən gəlinlərini nə çox istəyirsən.

2019-cu ilin 13 sentyabrında Əfqanın həyat yoldaşı olan gəlinin Səmayə Xərçəng xəstəliyindən dünyasını dəyişəndə, sənin gah gizlində, gah aşkarda necə ürəkdən, zədəli-zədəli ağladığını mən görürdüm, ana. Onda bir daha gördüm ki, sən gəlinlərini balalarından seçmirsən-ayırmırsan. Söhbət düşəndə özün də deyirdin ki, gəlin də mənim balalarımın biridi. Ürəyində doğma balan kimi istəyib-əzizlədiyin Səmayənin dağı var idi, ana. Heç kəs bilməsə də, mən yaxşı bilirdim. Sən elə bir vaxtda dünyanı dəyişdin ki, sənin 40 mərasimin də Səmayənin dünyasını dəyişdiyi günlərə təsadüf etdi. Bu, təsadüfdürmü, ya Tanrı qisməti, ilahi möcüzəsidirmi, balan kimi ürəyində oxşayıb-əzizlədiyin gəlininin ildönümünə sənin ”40”ın qarışdı, can ana!

Amma sən Allahın elə üzünurlu bəndələrindən idin ki, bu dünyadakı Allaha xoş gedən əməllərin, ipək kimi yumşaq, zərif xasiyyətin, qiybət, söz-həkət bilməməyin, iffətin-həyalılığın, ədəbin-mərifətin bu dünyasını axirət dünyası üçün yaşayan insan kimi - ana kimi də, nənə kimi də, ağbirçək kimi də səni həmişə tanıyıb - bilənlərin (doğmaların da, yadların da) yaddaşında, xatirəsində yaşadacaqdır. Bunu təkcə mən desəm, deyərlər ki, anasıdır, tərifləyir, bunu səni yaxından tanıyanların hamısı deyir...

Səndən nə qədər yazsam da, bir dastan da bağlasam sənə, sözüm qurtarmaz, anacan! Sonda sənin əziz və müqəddəs ruhun qarşısında baş əyib, diz çökürəm, sənə gəlin gətirə bilmədiyim üçün, səni bu səbəbə bu dünyadan nigaran-nisgilli köçürtdüyüm üçün bağışlanmağımı xahiş edirəm, canım ana!.. Allah məkanını cənnət eləsin, nur içində yat, əziz Anam!!!

*Ruhuna sonsuz ehtiramla:*
**Oğlun Şakir ALBALIYEV**

# Kitablarda açılan düyünlər

## Nazir ÇƏRKƏZOĞLU - 70



**Dərd adamı dəli edir, havalandırır. Dərd-qəm əlindən təngə gələn, havalanan insan isə gah özü özü ilə danışır, gah da dərdini bölüşməyə özünə dərd-qəm ortağı axtarıb, onunla danışıb-dilləşir. Bu kimi sosial-psixoloji amillərdən çıxış edəndə dərd-qəmin adamı şair elədiyi düşüncəsinin fərqinə varırsan.**

Doğrudan da, xalqımıza qaçqınlıq-köçkünlük kimi elindən-yurdundan didərgin düşmək müsibəti üz verəndə, bəziləri dərd məni şair elədi, - deyib qələmə söz verdilər. Bəli, əslində dərdin adamı şair, yaxud yazıçı eləməsi prinsipcə dərd-müsibət əlindən dəli olub, havalanan adamın öz dərdini-taleyini başqalarına yazılı şəkildə "danışmasıdır". Çünki şifahi şəkildə danışmaqla harayımızın - ünümüzün eşidilmədiyini gördükdə, adam məcbur qalıb yazılı nitqə əl atır, sanki öz dərdini - şikayətini rəsmi ərizə, ya müraciət yolu ilə rəsmiləşdirməyə canfəşanlıq edir ki, səsi-fəryadı bəlkə eşidilə, dərdinə hardansa bir əncam buluna. Mənə belə gəlir ki, dədin adamı şair və ya yazıçı eləməsi fikrinin özəyində məhz bu kimi sosial-psixoloji amillər dayanır.

Şairlik də, yazıçılıq da mahiyyətcə bir-birinə paralel olan anlayışlardır, aralarındakı fərq üslubda özünü göstərir. Yəni bir poeziyanın, digəri nəsrin dili ilə "danışır" - hər ikisinin silahı bədii təfəkkürün süzgəcindən ələnib oxucu dünyasına ötürülən qüdrətli sözdür. Hər ikisinin ümumi adı yazardır: şairin də, yazıçının da sənəti Sözdən keçir - Bədii sözdən.

Bu mənada dərdin-məcburi köçkünlük faciəsinin şair - yəni yazar elədiyi kəslərdən biri də bizim orta məktəbdə rus dili və ədəbiyyatı müəllimimiz olmuş Məmmədov Nazir Çərkəz oğludur. 1953-cü ildə Cəbrayıl rayonunun Dağtumas kəndində anadan olan Nazir Çərkəz oğlu 40 yaşında dogma yurdundan didərgin düşdükdən sonra təlabəlik illərini keçirdiyi Bakı şəhərində məskunlaşdı. İstər-istəməz taleyin bu amansız oyunundan hövlləndi. Rəhmətlik atası Çərkəz kişi Bakı şəhərində yurd həsrəti ilə ağır xəstə yatanda: mən öləndən sonra məni topun ağzına qoyun, üzü vətən torpağına - Dağtumasa tərəf atın. Qoyun nəşim gedib vətən torpağına qovuşsun, - demişdi. Bu fikirdəki çox böyük acı həyat həqiqəti adamı sızladıb-göynədr. Vətən həsrəti ilə dünyadan köçən belə bir atanın övladının da qəlbindən-könlündən keçən vətənsizlik nisgilinin onu yazıçı (şair) eləməsi təbiidir. Qəlbində qövr eləyən ağrıacılı düyünlər nəhayət ki, kitablarının səhifələrində açılmağa-çözülməyə başladı. 2012-ci ildə "Ağ bulağın göz yaşları", 2013-cü ildə "Vahid Tumaslı dünyası", 2014-cü ildə "Gəyən düzü", 2015-ci ildə "Gözləyəsi kimim var?!" və 2019-cu ildə "Fikrin aynası" kitablarında Nazir Çərkəzoğlu bədii-publisistik düşüncələri ilə oxucularını "salamladı". Bu kitabların səhifələrində Nazir müəllim oxucularını özü ilə keçmişə-vətənli günlərə səyahətə apardı, dost itkisinin ürəkləri sızladan göynərtisindən söhbət açdı, onunla bir yerdə çiyin-çiyinə rus dili müəllimi işləmiş Vahid Hüseynovun şeirlərini yığıb toplayıb kitab halına gətirdi







və xatirələrin işığında Vahid müəllimi oxucularına təqdim etdi və s.

Qeyd edim ki, Nazir Çərkəzoğlunun şirin təhkiyəsi var. Bu şirinlik onun keçmiş günləri nostalji duyğularla təsvir etməsində özünü göstərir. Bu şirinlik həm də o nostalji hissləri təbii hadisələr kimi təqdim edə bilmək bacarığında da özünü göstərir. Adam özünü həmin zamanın və hadisələrin içərisində hiss edə bilir. Bu da yazar kimi müəllifin uğurudur. İstərdim ki, fikirlərimin təsbiti olaraq "Gəyən düzü" əsərindən bəzi parçaları aşağıda təqdim edəm:

"Xəyallar dünyasını dolaşan Əşrəf gözlərinə inanmadı. Sanki nağıllardakı əfsanəvi su sonası zühr eləmişdi, ona elə gəldi ki qövsü-qüzey bağı rənglərə boyadı: bağın, ağacların, çəmənliyin rəngi dəyişdi. Sara ona tərəf gəlirdi. Görüş yerinə tez gəlmisən, əmioğlu, mənsiz dolanırsan bu yerlərdə. Ağlıma gəldi ki, burda olarsan. Danış görək dərslərin necədi, özün necəsən, o yerlərdə başqa bir Sara tapmamısan ki? Dilli-dilavər Əşrəf sanki lal olmuşdu, cavab vermək halətində deyildi. Necə yəni başqa bir Sara tapmısan. Axı bu müddət ərzində o həm bacısı, həm də dostu Ağalar vasitəsi ilə Saraya bir neçə namə yazıb ülvi hisslərini, pünhan duyğularını ona çatdırmışdı. İndi bəs Sara niyə belə tənəli sözlər deyirdi, görəsən...

Yadındamı yağışdan sonra qumsal çığırlarda qırxbuğumdan vər tutardıq. Bayram bərəsinin yamaclarında çiçəkli yemliklərdən, quzuqulağından tər dəstə bağlayar, evə doğmalara gətirərdik. Yazda quzuları ilk dəfə otarmağa aparanda evdən yağ, yumurta götürüb ocaq çatıb, sovulcada qayğanaq bişirərdik, duzunu çox tökərdik, ax necə də dadlı olardı. Dağlara çıxanda dovşanalması, mərmərik, çakqala, meşə talalarından ətir saçan çiyələk dərər, evə ana-bacılara pay gətirərdik.

Bu dəfə Ağalar dilləndi: - heç demirsən kollardan mərövcəni əllərimizə tikan bata-bata dərib, sonra da ocaq çatıb, ütüb, ovxalayıb necə ləzzətlə yeyərdik. Sonra da qaçardıq Sarı dərəyə su içməyə. Heç demirsən bir ay qalmış çərşənbə tonqallarını necə səbirsizliklə gözləyərdik. Parçanı iplə sarıyıb, məftillə bağlayıb şar düzəldib, neftin içərisinə qoyub hərəmiz öz şarlarımızla onu kim daha uzağa atar deyib öyünərdik. Doğrudan, Əşrəf, necə də mənalı, yadda qalan uşaqlığımız keçib, heyf o günlərdən. yaxşı ki, sən də, Hümbət də oxudu-nuz, bir sənətiniz olacaq. Biz isə bir tərəfə çıxa bilmədik, ömrü boyu elə kolxozda fəhləçilik edəcəyik. Bir də ki, Əşrəf, fikrim var ki, gedəm kolxozun qarajına traktorçu mexaniklərin yanında şəyirdlik edəm, bəlkə bir peşə sahibi oldum, nə deyirsən?...

Ağaların atası Heydər kişi dədə-babadan rəncbər idi. Əkin-biçin işlərində olar, öküzləri ilə kolxozun əkin sahəsini şumlayardı. Ağalar da atasının yanında hodağa gedərdi. Hodağa getmək elə də asan iş deyildi. Ağalar ətli-canlı olduğundan bu işi bacarırdı. Anası Gülsüm, bacısı Narınc isə ev işlərinə baxırdılar. Atası evdə olmadığından Əşrəfi Ağaların anası, bacısı qarşılādı".

Gətirdiyim yuxarıdakı nümunələrdə kənd ab-havası bütöv gözəlliyi ilə təsvirini tapıb. Belə ki, kənd həyatına, kənd adamına xas olan ülvi sevgi-məhəbbət duyğuları burada necə təbii boyada verilib. Əşrəflə Sara arasındakı saf sevgi kənd həyatının ictimai sferada saflığını əks etdirir. Eləcə də kənd yerlərinin coğrafi mənzərəsini gözümüz qarşısında təbiiliklə canlandıran müəllif kənd həyatı, kənd uşaqları üçün xarakterik olan etnoqrafik məişət lövhələrindən də ustalıqla söhbət açır. Çərşənbə bayramında havaya atılan yanar şarları necə həvəslə düzəltmələrindən və s. danışan yazıçı elə məqamındaca kənd həyatı üçün sənət, peşə dalınca getməkdən də bəhs açır. Ağaların hodağa getməsindən, rəncbər-əkinçi atasına kömək etməsindən söz salan Nazir Çərkəzoğlu bununla həm də oxucularını bir qədər uzaq keçmişə də çəkib apara bilir.

Müəllif bir yazar olaraq 1937-ci ilin qanlı repressiya dövrünü də əsərində xarakterizə edir, həmin zamanın sosial-psixoloji ab-havasını da təsvirə gətirir: "İbadətdə olan kənd əhli, ahıl adamlar kəndin məscidi bağlanandan sonra səksəkə içində namazı evlərində qılır, Allaha dualar edirdilər. Yaxın ərazilərdə yerləşən çələbi ocaqları, seyid nəslindən olanların əksəriyyəti sürgün edildikdən sonra kənd adamları bir çaşqınlıq içərisində idilər. NKVD-nin hər kənddə öz agentləri var idi. Bunların əlindən açıq-saçıq danışmaqdan belə çəkinirdilər. Bu agentlərin haqlı-haqsız donosları əsasında saysız-hesabsız insanlar tutulub işgəncələrə məruz qalırdılar. İş o yerə çatmışdı ki, kolxoz qulluğunda işləyən bəzi nanəciblər bu agentlər vasitəsi ilə gözəgəlimli qadınları əldə etmək üçün ərlərini müxtəlif yollarla şərləyir, Sibirə sürgün elətdirirdilər. Gecə ikən aradan götürmək üçün bəzilərinin evlərində olan "xalq atası"nın şəklini ya cırır, ya qələmlə gözünü deşir, bəzilərini, məsələn, kolxoz qarovulçusunu tutdurmaqdan ötrü gecənin qaranlığında kolxoz tayasına od vurur, digər iyrənc üsullardan istifadə edirdilər" (səh.70).

Bu cümlələrdə biz təzə qurulmuş və repressiya caynağını işə salaraq insanları psixoloji gərginlikdə saxlayan sovet rejiminin qəddarlıqlarından hali oluruqsa, bir qədər sonra rast gəldiyimiz aşağıdakı cümlədə isə Nazir müəllimin rus dili və ədəbiyyatı müəllimi olaraq Nikolay hökuməti ilə bağlı maraqlı bilgi ilə rastlaşırıq: "Birinci Nikolay özünün teztez zəhləsini tökən arvadlarından birinə deyərmiş ki, nə hürürsən Mərcanlı itləri kimi. Həmin itlərin səsinin haralara qədər gedib çıxması elə bu ifadədən məlum olur" (səh.71).

Göründüyü kimi, N.Çərkəzoğlu təsvir etdiyi dövrün sosial quruluşunu, siyasi ab-havasını da ustalıqla əsərin canına hopdura bilir. Başqa sözlə, yazıçı dövrü milli koloriti və siyasi çalarları ilə birlikdə tam, bütöv bir kompleks şəklində təqdim etməyə nail olur ki, bu da oxunan əsərin quru, cansıxıcı yox, real həyat lövhələri kimi qavranılmasına təminat verir. Oxunan əsər isə nə qədər canlı təqdim oluna bilirsə, o qədər də rahatlıqla oxucu dünyasına sirayət edə bilir, oxucunu öz orbiti ətrafına çəkə bilir. Hətta bu həyat hadisələrinin cövhərinə folklor ruhu da qatılır ki, bu da romanın axıcıllığını, şirinliyini daha da artırır. Əsərə üz tutmaqla dediyimizin şahidi olarıq:

"- Əşrəf, oğul, bu fani dünyanın işlərindən baş açmaq olmur. Biz ömrümüzü, günümüzü çölçülükdə, dağ-aran yollarında çürütdük, nəfimiz o oldu ki, uşaqları böyütdük, ailə-uşaq sahibi oldular. Güzəranımız pis keçmədi, qazancımıza haram qatmadıq. Qohum-qonşunun malına kəm baxmadıq. Çünki bizdən əvvəlkilər də elə olublar, bizə də belə tərbiyə veriblər. köhnə kişilərin rəiyyəti də, bəyi də mərd olublar, bir "sən öl"ə qanı bağışlayıblar, ağsaqqal sözündən çıxmayıblar. Qulaq asın, sizə dədə-babalardan bir əhvalat danışım:

- Qədim zamanlarda iki tayfa bir-biri ilə düşmən olur. Onlar hərəsi öz iş-gücündə, əkin-biçinində idi. O illərdən biri çox ağır gəlir, quraqlıq olur, çörək qıtlığı yaranır. Tayfa başçılarının biri o birisindən ağıllı, tədbirli olur, ağır günlər üçün xeyli taxıl ehtiyatı saxlayır. Eşidirlər ki, bəs, düşmən tayfası acından qırılır. Tayfa başçısı deyir ki, bir az ehtiyatlı olmasaydıq, bu aclıq, səfalət bizim də başımıza gələ bilərdi, yaman günün ömrü az olar, düşmənçiliyimiz də olsa biz onlara kömək etməliyik.

Başçının bu məsləhətinə heç kim etiraz bildirməyə cürət eləmir. Atları taxılla yükləyib göndərirlər düşmən tayfaya. Yəni demək istəyirəm ki, babalarımız bir tikə, bir parça çörəyi də düşməndən əsirgəməyiblər. Bizim türkçülük, turançılıq, islami anlayışlarımız həmişə belə olub, Allaha, onun halallığına tapınmışıq.

Qərib babanın bu ibrətamiz sözlərinə qulaq asan Sara dillənir:

- Mülayim nənə, baba danışdı, bəlkə sən də bir əhvalat danışasan, qulaq asaq.

- Hə, bala, niyə danışmıram, mən babandan da çox bilirəm, qulaq asın, birini də mən danışım, - Mülayim deyir. Belə bir əhvalat danışmağa başlayır:

Rəvayətə görə, Kür çayının üstündə ensiz bir taxta körpü olur. Günlərin bir günü iki dəliqanlı igid bu taxta körpünün tən ortasında at arabaları ilə üz-üzə gəlirlər. mübahisə etdiklərindən sözləri çəp gəlir, biri o birinə güzəştə getmir, biri-birinə yol vermir. Hər iki tərəfdə xeyli piyada, atlı, böyük bir tıxac yaranır. Bu dəliqanlılar heç kimi eşitmək istəmirlər. xəbər yaxın ərazidə yaşayan kəndin ağsaqqalına çatır. O, atını minib çaparaq körpüyə yaxınlaşır. İzdihamı, tıxacı yararaq atlılara yaxınlaşır, ayrı-ayrılıqda hərəsinin qulağına nəsə deyir. Elə həmin anda hər iki cavan atlı at arabalarını geri çəkir. Adamlar, atlar varid olub, keçibgedirlər. Bir nəfər yaxınlaşıb ağsaqqaldan soruşur: - Sən onlara nə dedin ki, hər ikisi geri çəkildi? - Dedim ki, kim mərddirsə, qoy namərdə yol versin, - ağsaqqal cavab verir.

Əhvalata qulaq asan baba, - "arvad, sən başdan ayağa hikmət qalasısanmış, xəbərimiz olmayıb", - deyir. Xeyli gülüşürlər. Ardınca baba deyir:

- Balalarım, mən də qismətimə düşən ömür payımı bu qarıya həsr elədim, elə peşman da deyilik. Sizin həyatınız indi başlayır, çalışın ailə seçimində səhv etməyin, sonrakı peşmançılıq fayda vermir. Görürəm, hərdən xısın-xısın danışırsınız, maşallah, elə bir-birinizə yaraşırsınız. Böyüklərin də, sizin də razılığınız olsa, toyunuzu edib biz də bir nəvə toyu görərdik. Bu qarışıqlıqdan çoxdandır kənddə bir toy-büsat olmur.

*(Ardı səhifə 8-də)*





# Kitablarda açılan düyünlər







*(Əvvəli səhifə 7-də)*

- Baba, sənin də başına söz qəhətdir, ayrı şeydən danış, - Sara dillənir.

- Yaxşı, bala, sən bir yaxşı mürəbbəli, kəkotulu samovar çayı gətir, əvəzində sizə bir maraqlı eşq əhvalatı danışacağam” (səh.74-75).

Göründüyü kimi, burada kənd həyatının real lövhələri, halal kənd adamlarının yaşayış tərzi, məişət həyatı nağıl dili kimi şirin bir formada nəql olunur. Bu da yazıçı təhkiyəsinin oxucu qəlbinə asanlıqla yol tapmasına mühüm zəmin yaradır. Bu parçada biz həm də xalqımızın mental ruhunu əks etdirən Ağsaqqallıq İnstitutunun cəmiyyətdə oynadığı mühüm rolun da şahidi oluruq. Doğrudan da, Azərbaycan xalqı ta qədimdən ağsaqqal və ağbirçəkləri ilə fərqlənib və onlar nurani-pirani insanların nümayəndələri olaraq yolunu azana, yolundan təzənə yol göstərib, cəmiyyətin sağlam birgəyaşayış ənənəsini qorumaqda və yaşatmaqda mühüm missiyanı yerinə yetiriblər. Deyərdim ki, Nazir Çərkəzoğlunun yazılarındakı bu cür milli-mental xüsusiyyətlərin əksini tapması onun oxunaqlılığını artıran əsas keyfiyyətlərdən biridir.

“Gəyən düzü” romanında təsvir olunan ”Dağlar əhatəsində, təbiətin qoynunda yerləşən Köhnəqala kəndi” elə Nazir Çərkəzoğlunun öz doğma kəndi - Dağtumas kəndidir. Mən Tumas sözünü ”Kitabi-Dədə Qorqud”dakı Tuman qalası ilə eyniləşdirmişəm. Doğrudan da, Dağtumas kəndi dağlarla təbii şəkildə əhatə olunmuş Tuman qalasına bənzəyir. Nazir Çərkəzoğlu da yazıçı intuisiyası ilə əsərində kəndin adını Köhnəqala kimi təqdim edir. Bu kəndin adət-ənənələri də təbii ki, elə əsil türk-Azərbaycan milli adət-ənənələri ilə bir bütöv olaraq təsvir edilir əsərdə:

”Hərdən kəndə aşıqlar təşrif buyuranda yığılardılar Allahverdinin, Əbdüləlinin damına, gecədən keçmişə qədər nağıllara, dastanlara qulaq asardılar. Kənd ovçuları da evdə bekar oturmazdılar. Altdan-üstən geyinib çıxardılar dağ keçidlərinə. Qismətlərinə düşən kəklik, dovşan, hərdən meşə əliyi, çöl qabanı vuranda kefləri kök qayıdar, az da olsa ətindən qonum-qonşuya pay verərdilər. Qışın çıxması ilə çərşənbələri, Novruz bayramını toy-büsatla keçirər, yaz yağışlarından sonra çıxardılar kolxozun təsərrüfat işlərinə” (səh.78-79).

Bu minvalla Nazir müəllim illərlə qoynundan ayrı düşdüyü dogma kəndinin ab-havasını bütün incəliklərinə kimi öz kitab(lar)ında oxucularına ”yaşatdırır” və bununla həm də gənc nəslə doğma el-obaya, soykökə bağlılıq hisslərini aşılayır. Məhz ruhumuzda yaşayan milli vətənpərvərlik duyğularının qanımızda - damarlarımızda coşub-kükrəməsi bizə yenilməz güc verdi və bu yenilməz Koroğlu ruhuyla 44 günlük 2-ci Qarabağ savaşında doğma torpaqlarımızı yadelli işğalçılardan azad elədik. Eşidib-bildiyimə görə, Nazir Çərkəzoğlu dogma yurda ayaq basıb, 30 illik həsrətin tilsimini sındıra bilib. Bu il həm də Nazir müəllimin yubiley ilidir. 70 yaşlı bir müdrikin timsalında ona tezliklə dogma torpağımıza gedib, orada ömür-gün keçirməyini, yaşamağını və orada gənc nəslə bir müəllim kimi də, bir ağsaqqal kimi də dəyərli tövsiyə - məsləhətləri ilə həyat bilgisi - həyat dərsi keçməyini arzulayıram!

**Şakir ALBALIYEV**

# YAY DƏRSİ: “YAPON BAĞI”NDA YAPONİYA HAQQINDA






**30 illik müəllimlik fəaliyyətimdə bu sənəti seçdiyim üçün heç vaxt peşman olmamışam, bəzən yorulsam da, yenə şagirdlərimlə bir arada dincəlmişəm.Məni bu peşəyə yönəldən anama və müəllimlərimə həmişə minnətdaram.**



Bildiyimiz kimi, məktəblilər yay tətilinə buraxılıb, müəllimlər də məzuniyyətdədirlər.Mən də çoxları kimi istirahətimi Bakıda öz evimdə, ailəmlə keçirirəm. Fikirləşdim ki, hansısa bir qrand layihənin qalibi olandan sonra layihə həyata keçirməkdənsə, bəlkə elə sınaq üçün kiçik bir layihə həyata keçirim.Düşündüm ki, bunu az miqdarda maddiyyatla da həll etmək olar. İşə başladım.Əvvəlcə şagirdlərimlə əlaqə saxladım. Şəhərdə olanlarla məsləhətləşib, proqram hazırladıq. Heç uzağa getmədik.Yaxınlıqda yerləşən Yapon bağını məkan olaraq seçdik. Məqsədimiz Yapon - Azərbaycan dostluğu, Yaponiyanın tarixi, iqtisadiyyatı, coğrafi mövqeyi, ərazisi, əhalisi, mədəniyyəti,ədəbiyyatı, milli geyimləri və mətbəxi haqqında məlumat öyrənmək idi.

Öyrəndik ki, Yaponiya ilə Azərbaycan arasında diplomatik əlaqələrin bünövrəsi 1992- ci ildə qoyulub. 2022-ci ildə bu dostluğun 30- cu ildönümü qeyd olunub. Hətta “2022- ci il Yaponiya - Azərbaycan Dostluq İli” adlandırılıb.

Xətai rayonu ərazisində yerləşən Yapon bağı isə 2015- ci ildə azərbaycanlı və yapon ustalar tərəfindən ordan gətirilmiş materiallarla salınaraq, istifadəyə verilib.

Görüşümüz və tədbirimiz maraqlı keçdi. Şagirdlər öyrəndikləri, topladıqları materialları təqdim etdilər.

Beləcə bir yay günündə asudə vaxtımızın səmərəli keçməsindən məmnun qaldıq.

Sonda şagirdləri kiçik hədiyyələrlə mükafatlandırdım.

**Səidə QULİYEVA,**
*Cəbrayıl rayonu Milli Qəhrəman Kazım Məmmədov adına Böyük Mərcanlı kənd tam orta məktəbində sinifdənxaric və məktəbdənkənar işlər üzrə təşkilatçı müavin*

# Mediasiya Təşkilatı

## *Fəaliyyətimizin bir ili tamam oldu*





Mediasiya haqqında Qanunvericilik 2019-cu il martın 29-da qəbul olunub. 03 aprel 2019-cu ildə prezidentin Fərmanına əsasən qüvvəyə minib. 2021-ci ilin 01 iyulunda 3 sahə üzrə ailə, əmək və kommersiya mübahisələri məhkəmə və arbitrajdan əvvəl Mediasiyaya gəlməsi tələb olunur.Əsas məqsəd isə tərəflər arasında yaranmış münaqişə səviyyəsinin azaldılması və onları razı salacaq şəkildə həll edilməsidir. Mediasiyanın məqsədi 3-cü şəxs və şəxslərin təsiri olmadan mediatorun köməyi ilə mübahisənin həll edilməsidir.

Mediasiya bizim ölkəmiz üçün yeni institutdur. Fəaliyyətə başladığının 2 ili olmasına baxmayaraq bir çox nailiyyətlər əldə edib. Orta statistik rəqəmlərə baxdıqda aydın olur ki, daxil olan işlərin 35-40% barışıqla nəticələnib. Bu işə əhali arasında barışıq mühitinin yaradılmasına, ədliyyə və məhkəmə yükünün azaldılmasına səbəb olur. Biz Mediasiya təşkilatı olaraq daha yüksək nəticələrə nail olmağa çalışırıq. Bu yolda ölkə rəhbəri və Ali Baş Komandan cənab İlham Əliyevin dəstəyi hər zaman bizimlədir. Eyni zamanda dövlət və hökumət orqanlarının, ədliyyə və məhkəmə sisteminin, ombudsmanın, mərkəzi bankın və digər orqanların dəstəklərini hiss edirik. Mediasiya Şurasının rəhbərliyi cənab Nadir Adilov başda olmaqla hər birimiz Mediasiyanın daha yüksək hədəflərə çatmasına çalışırıq.

Mediasiya institutu formalaşdıqdan sonra Mediasiya Təşkilatları yarandı. Cəbrayıl 1 saylı Mediasiya Təşkilatı 11 fevral 2022-ci ildə Ədliyyə Nazirliyində Dövlət Qeydiyyatından keçib. 26 iyul 2022-ci ildən Mediasiya Şurasının üzvü olaraq fəaliyyətə başlayıb. Fəaliyyət ərazisinə Cəbrayıl, Füzuli, Beyləqan, Xocavənd, Laçın, Ağcabədi, Qubadlı və Zəngilan rayonları aiddir. 25 iyul 2023-cü ildə Cəbrayıl 1 saylı Mediasiya Təşkilatı bir illik fəaliyyəti ilə əlaqədar tədbir keçirdi. Tədbirdə rayon İcra Hakimiyyəti rəhbərliyi, əməkdaşları, hüquq muhafizə orqanları digər idarə, müəssisə rəhbərləri, sadə vətəndaşlar iştirak etdilər.

Cəbrayıl 1 saylı Mediasiya Təşkilatının direktoru Tahir Balakişiyev verdiyi hesabatında 6 ay ərzində Cəbrayıl 1 saylı Mediasiya Təşkilatına 789 işin daxil olduğunu və bundan 334 işin barışıqla nəticələndiyini bildirdi. Bu təqribən 43% barışıq deməkdir. Yəni 334 iş məhkəməyə müraciət etmədən mediasiyadan geri dönüb. Bundan sonra da daha yüksək nəticələri hədəfləyirik.

Cəbrayıl rayon İcra Hakimiyyətinin başçısı vəzifəsini icra edən müavin cənab Tapdıq Nəsirov çıxış etdi. Cəbrayıl 1 saylı Mediasiya Təşkilatına müvəffəqiyyətlər arzu etdi.

Sonra digər idarə və müəssisə rəhbərləri, vətəndaşlar da çıxış etdilər.

Tədbirin keçirilməsində dəstək olan Cəbrayıl rayon İcra Hakimiyyətinin başçısı cənab Kamal Həsənova dərin minnətdarlığımızı bildiririk.

**Cəbrayıl RİH, YAP rayon təşkilatı və “Xudafərin” qəzeti**
“Xudafərin” qəzetinin baş redaktoru Şakir Albalıyevə, anası
**QƏRƏNFİL QUBUŞ QIZININ**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin!**

**Cəbrayıl RİH, YAP rayon təşkilatı və “Xudafərin” qəzeti**
**Haqverdiyev Vidadi Mehdi oğlu, Yusifov Fərhad Hüseyn oğlu, Məmmədova Əsli Məhəmməd qızı, Mehdiyeva Gülüstan Alməmməd qızı, Hüseynov Sərdar Hüseyn oğlu və Allahverdiyeva Ülkər Əli qızının**
vəfatlarından kədərləndiklərini bildirir və ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin!**

Baş redaktor:
**Şakir Əlif oğlu ALBALIYEV**

Qəzet Ədliyyə Nazirliyində qeydə alınıb.
**CİF 1209641**
**H/h:55233080000**
**kod: 200123**
**VÖEN: 9900003611**
**SWIFT kod: AIIBAZ2X**
**M/h: AZ37NABZ01350100000000001944**
**Benefisiarın hesabı: AZ27IIB410100C9443130139112**
**VÖEN: 8200035441**
**Ünvan: AZ 1073, Bakı şəh.,**
Mətbuat prospekti, 529-cu məhəllə
“Azərbaycan” nəşriyyatı.
**Telefon:** (051) 441-15-82

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

Materiallardakı faktların doğruluğuna müəlliflər cavabdehdir.

**Əlyazmalar geri qaytarılmır.**

Qəzet “Xudafərin” qəzetinin kompüter mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında çap edilib.
**albaliyevshakir@gmail.com**
**albaliyevshakir@rambler.ru**
**Sifariş №: 2163**
**Tiraj: 3000**